

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

30 dekabr
2025-ci il,
çərşənbə axşamı
№ 239 (7066)
Qiyməti
60 qəpik


# Prezident və birinci xanım "Bakı Ağ Şəhər"də...




Bax səh. 2

## Sülh prosesində böyük irəliləyiş...

Bax səh. 4

## Rekord sayda medal!

İdman hər bir ölkənin beynəlxalq səviyyədə layiqli təqdimatı, uşaqların sağlam böyüməsi, gənclərin fiziki cəhətdən güclü, mənəvi cəhətdən vətənpərvər ruhda formalaşmaları üçün çox mühüm vasitədir. Buna görə də respublikamızda idmanın inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib. O cümlədən hər ilin sonunda dövlət başçısı, Milli Olimpiya Komitəsinin (MOK) Prezidenti İlham Əliyevin idman ictimaiyyətinin nümayəndələri ilə görüşməsi, yüksək nəticələr qazanan idmançıları mükafatlandırması gözəl bir ənənəyə çevrilib.

Bu ənənə cari ildə də davam etdirlib. Bir neçə gün bundan əvvəl 2025-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib. Dövlətimizin başçısı, MOK-un prezidenti İlham Əliyev mərasimdəki çıxışında ölkəmizdə idmanın inkişafından məmnunluğunu bildirib və Özünün dəyərli tövsiyələrini verib. "Azərbaycanda idmanın inkişafı dövlət siyasətidir və dövlət xətti ilə bir çox proqramlar icra edilmişdir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Hazırda bütün istiqamətlərdə böyük uğurlara imza atan müstəqil Azərbaycan dünyada nümunəvi dövlət kimi qəbul edilir. Eyni zamanda, son illərdə respublikamız özünü həm də idman ölkəsi kimi təsdiqləyir. Bütün ölkə boyunca beynəlxalq standartlara cavab verən müasir idman infrastrukturu qurulub. Son 22 ildə Prezident İlham Əliyevin göstərişləri əsasında paytaxt Bakıda və regionlarda müasir Olimpiya İdman Komplekslərinin inşası ölkənin hər yerində böyüməkdə olan nəslin idmanla məşğul olmalarına geniş imkanlar açıb. 2025-ci ildə Gəncədə və Yevlaxda olmaqla daha iki Olimpiya İdman...

Bax səh. 3




Bax səh. 3

## Quruculuğun və dirçəlişin rəmzi

Bax səh. 2

## Manatın məzənnəsi möhkəmlənib

Bax səh. 5

## 8 illik xidmət...

Bax səh. 5

## Azərbaycan Avropa Siyasi Birliyində fəal təmsil olunur

Hazırda beynəlxalq münasibətlər sistemində çox ciddi geostrateji dəyişikliklər baş verir. Məhz bu dəyişikliklər və digər proseslərin fonunda yeni çağırışlar meydana gəlir. Belə bir geostrateji şəraitdə milli dövlətlərin qlobal sistemdə yeri və rolu məhz həyata keçirilən müstəqil siyasətdən də asılıdır. Bu kontekstdə Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın yaratdığı mənzərə unikal, mütərəqqi nümunə kimi çıxış edir.

Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Bu isə həm də regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir. Digər tərəfdən, milli maraqlara uyğun olaraq reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlərini, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir.

Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Cənubi Qafqazda yeni mənzərə yaranıb. Bu, dövlətimizin yaratdığı yeni reallıqlardan ibarətdir. Torpaqlarını işğaldan azad etdikdən sonra Azərbaycanın nəinki regionda, bütövlükdə, beynəlxalq...

Bax səh. 4




Bax səh. 7




Bax səh. 7

# Prezident və birinci xanım "Bakı Ağ Şəhər"də...

















Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva dekabrın 29-da "Bakı Ağ Şəhər"də olublar.

AZƏRTAC xəbər verir ki, "Bakı Ağ Şəhər" layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlətimizin başçısına və birinci xanıma burada icra olunmuş və hazırda həyata keçirilən işlər barədə məlumat verdi.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları əvvəlcə "Qarabağ atları" heykəltəraşlıq kompleksi ilə tanış oldular. Vətən müharibəsindəki Qələbəmizə həsr edilmiş və milli irsimizin rəmzi olan bu kompleks "Qarabağ atları" meydanında ucaldılıb. Kompleksdə "Soltan", "Ürək", "Sereyin", "Aypara", "Şöhrət", "Ötqəm" və "İldırım" adlı ümumilikdə 7 Qarabağ atının heykəli var.

Bu kompleksin təməlini 2022-ci ilin dekabrında Prezident İlham Əliyev qoyub. Kompozisiya amerikalı heykəltaraş Robert Sammers tərəfindən yaradılıb. Onun Dallas şəhərində "Mal-qara sürülməsi", Kaliforniya hava limanında "Con Ueyn" və digər əsərləri dünyaca məşhurdur.

Sonra dövlətimizin başçısı, birinci xanım və qızları "Bakı Ağ Şəhər"də Babək kvartalında həyata keçirilən işlərlə tanış oldular. Hazırda bu layihənin icrası istiqamətində işlər uğurla davam edir. Ərazisi 31 hektar olan kvartalda yeni park, məktəb binası, metronun bənövşəyi xəttində yeni stansiya, sərnişinlərin rahat hərəkəti üçün böyük nəqliyyat qovşağı, həmçinin çoxfunksiyalı qeyri-yaşayış, ictimai və yaşayış binalarının inşası planlaşdırılır. Ərazidə kafelər, uşaq oyun meydançası və digər sosial infrastruktur yaradılacaq. Bundan başqa, yaxınlıqda 2, 3, 6, 8 və 20 mərtəbəli binalar tikiləcək.

Kvartal Bakının mühüm nəqliyyat arteriyası olan Babək prospekti, "Ağ Şəhər" çərçivəsində salınmış, üç böyük prospektlə kəsişən, eni 45 metr olan Xaqani Rüstəmov küçəsi ilə əhatə olunub. Kvartalın cənub hissəsində yerləşən, metronun "Xətai" stansiyasından keçən Süleyman Vəzirov küçəsi də Babək prospekti ilə birləşir. Bu küçədəki dairədən Babək prospektinə qədər eni 34 metr, uzunluğu isə 1 kilometrdən çox olan dördzolaqlı yol yenidən qurulub. Hazırda Süleyman Vəzirov küçəsini Babək prospekti ilə birləşdirən, eni 32 metr olan iki əlavə yol qovşağının tikintisi üzrə işlər davam etdirilir. Bu küçə boyunca piyadaların rahat hərəkəti üçün eni 7 metr olan geniş səkilər salınıb, ağac və gül kolları əkilib, yerüstü piyada keçidləri, elektrik avtomobilləri üçün enerjidoldurma məntəqəsi, yanacaqdoldurma məntəqəsi və digər zəruri infrastruktur yaradılıb. Avtomobillərin rahat hərəkəti və sıxlığın qarşısının alınması üçün zəruri yerlərdə dönmə və geriyə çevrilmə zolaqları nəzərdə tutulub. Layihə çərçivəsində məktəbin qarşısında piyadaların parka və Bakı Avropa Liseyinə rahat hərəkətini təmin etmək məqsədilə piyada körpüsü quraşdırılıb.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Palıd meydanı parkında ilk palıd ağaclarını əkdilər.

Qeyd edək ki, parkda çox sayda palıd, çinar, zeytun, ağcaqayın, maqnoliya, palma və digər mövsümi ağacların əkilməsi planlaşdırılır.

Dövlətimizin başçısı, birinci xanım və qızları "Bakı Ağ Şəhər"də Zaman meydanı və buradakı piyada körpüsünün açılışında da iştirak etdilər.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülmüş işlər barədə məlumat verdi.

Uzunluğu 234, eni isə 7-13 metr arasında dəyişən körpü "Bakı Ağ Şəhər"də piyadaların rahatlığının təmin edilməsində mühüm rol oynayacaq. Piyadalar onun vasitəsilə 8 Noyabr prospektində yerləşən Zaman meydanına, Babək prospektindən Mərkəzi Park rayonuna, Fəvvarələr meydanından isə Ağ Şəhər Bulvarına rahat gedə biləcəklər. Körpüdə quraşdırılan eskalator və liftlər metronun yeni "Ağ Şəhər" stansiyasına keçidi təmin edəcək.

8 Noyabr küçəsində yerləşən və 8 min kvadratmetrə yaxın ərazini əhatə edən Zaman meydanı gözəl landşaft və fəvvarələr kompleksi ilə əhatə olunub. Bura incəsənət və mədəniyyət həvəskarlarının məkanına çevrilib. Belə ki, meydanda bir çox yerli və xarici məşhur sənətkarların əsərləri nümayiş olunur. Meydan dünyada məşhur rəssam Konstantin Krik tərəfindən məhz "Bakı Ağ Şəhər" layihəsi üçün hazırlanmış 7 saatdan ibarət "Seven Public Clocks" kompozisiyası ilə bəzədilib. Konstantin Krikin 1999-cu ildə yaratdığı "Six Public Clocks" adlı eyni sənət instalyasiyası hazırda Londonda yerləşir və məşhur rəmzlərdən birinə çevrilib.

Meydanda yerləşən Cozef Klibanskinin "Buludların üstündə" adlı bürünc kompozisiyası da maraqla qarşılanır. Ağ Şəhərin mərkəzi yollarından biri olan Bulvar küçəsində müasir britaniyalı heykəltaraş Saymon Qadcenin "Nur axtarışında" heykəli də quraşdırılıb. Bu heykəl dünyanın müxtəlif ictimai yerlərində, o cümlədən Londondakı "Riverside Walk Garden" və "Hyde Park" komplekslərində qoyulub. Saymon Cadcenin xüsusi olaraq "Bakı Ağ Şəhər" üçün hazırladığı "Flaminqo" əsəri də tezliklə buradakı Dağdağan parkını bəzəyəcək.

Qeyd edək ki, bu ərazi 150 ildən çox neft sənayesi tullantıları ilə həddindən artıq çirkləndiyi və burada çoxsaylı neft gölməçələri yarandığı üçün bir vaxtlar "Qaraşəhər" kimi tanınırdı. Azərbaycan Prezidentinin təşəbbüsü ilə bu ərazi dünya miqyasında nadir ekoloji layihəyə, müasir yaşayış massivinə çevrilib. "Bakı Ağ Şəhər" layihəsi dünyada müasir şəhərsalma konsepsiyanın ən parlaq nümunələrindən biridir. Layihənin icrasına Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2011-ci il dekabrın 24-də başlanılıb. Layihə ekoloji cəhətdən təmiz, dayanıqlı və "ağıllı şəhər" prinsipləri əsasında işlənib hazırlanıb. Yaşayış binalarının əksəriyyəti MDB ölkələri arasında ilk dəfə olaraq BREEAM - beynəlxalq ekoloji sertifikatlaşdırma standartına və CRREM - karbon risklərinin qiymətləndirilməsi tələblərinə uyğun layihələndirilib. Geniş daxili küçələri, yaşıllıq sahələri, müasir beynəlxalq heykəltaraşlıq əsərləri ilə bəzədilmiş və şəhərsalmanın son yenilikləri nəzərə alınmaqla layihələndirilmiş "Bakı Ağ Şəhər" paytaxtın iş, yaşayış və istirahət üçün ən müasir məkanına çevrilir.

Bütün dünyanın diqqət mərkəzində olan COP29-un mənzil-qərargahının məhz "Bakı Ağ Şəhər"də olması da rəmzi məna daşıyırdı. Bu, beynəlxalq iqlim gündəliyinə mühüm töhfələr verən Azərbaycanda ekoloji, o cümlədən yaşıllaşdırma məsələlərinin həlli ilə bağlı görülən işlərin nümayişi baxımından da mühüm əhəmiyyət daşıyırdı.

# Quruculuğun və dirçəlişin rəmzi

## Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Azərbaycanda keçirilməsi beynəlxalq tərəfdaşlığı gücləndirəcək

Azərbaycanda şəhərsalma fəaliyyəti dövlətin sosial-iqtisadi siyasətində dayanıqlı inkişafın əsas strateji hədəflərindən biri kimi müəyyənləşib. Son illərdə ən qabaqcıl şəhərsalma trendləri ölkəmizdə tətbiq olunub, beynəlxalq şirkət və innovasiya qurucuları ilə sıx əməkdaşlıq layihələri çərçivəsində yeni modellər işlənilib. Azad edilmiş ərazilərdə şəhərsalmanın unikal modelləri, "ağıllı" texnologiyalar, rəqəmsal innovasiyalar şəhərsalma mədəniyyətinin müasir vizyonu kimi yadda qalıb. Hazırda bu istiqamətdə ardıcıl və məqsədyönlü addımlar atılır, şəhərsalma və urbanizasiya sahəsində müasir standartlar tətbiq edilməklə Bakıda və respublikanın digər şəhərlərində gerçəkləşdirilən layihələr ölkənin hərtərəfli inkişafında mühüm rol oynayır. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tamamilə dağıdılmış yüzlərlə kənd, qəsəbə və şəhərin yenidən qurulması prosesi planlı şəkildə sürətlə davam etdirilir.

**Şəhərsalmada həmrəyliyin nümunəsi**

Azərbaycanın şəhərsalma sahəsində əldə etdiyi qabaqcıl təcrübə beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır. Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma sahəsində qlobal çağırışların həllində və innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınır. Bu sahədə beynəlxalq əməkdaşlıq, xüsusilə də BMT-nin Məskunlaşma Proqramı ilə birgə həyata keçirilən təşəbbüslər xüsusi önəm daşıyır. Bu təşəbbüslər sayəsində respublikamızın dünya tikinti və inşaat, infrastruktur liderləri olan şirkət və korporasiyalarla əlaqələri də yeni dövrə daxil olub, ölkəmizin quruculuq proqramlarına qoşulmaq istəyən şirkətlərin sayı artır. İrimiqyaslı qlobal tədbirlərdən hesab edilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) 2026-cı il mayın 17-22-də Bakı şəhərində keçirilməsi barədə qərar bu baxımdan beynəlxalq tərəfdaşlarla uğurlu əməkdaşlığının növbəti parlaq təzahürüdür. Eyni zamanda, ölkəmizə olan etimadın və dostluğun, həm də şəhərsalma istiqamətində ortaq məqsədlər naminə həmrəyliyimizin göstəricisidir.




**"Ağıllı" və innovativ şəhər konsepsiyası reallaşır**

WUF13 Azərbaycan Əməliyyat Şirkətinin Media Əlaqələri üzrə Meneceri Eldar Rəsulov bildirib ki, sessiya BMT-nin Məskunlaşdırma Proqramı və Azərbaycan hökumətinin birgə təşkil etdiyi ən nüfuzlu beynəlxalq platformalardan biri kimi diqqəti cəlb edir. "WUF13 sessiyası qlobal şəhərsalma gündəliyinin mühüm mərhələsi olmaqla yanaşı, dayanıqlı şəhər inkişafı sahəsində qlobal siyasət dialoqunu, eləcə də bilik və qabaqcıl təcrübə mübadiləsini bir araya gətirən əhəmiyyətli beynəlxalq tədbirdir. Forum ilk dəfə olaraq Xəzər və Cənubi Qafqaz regionunda keçiriləcək və tədbirdə 10 minə yaxın beynəlxalq iştirakçı, ümumilikdə isə təxminən 30 min iştirakçının olması gözlənilir".

E.Rəsulov vurğulayıb ki, əvvəlki WUF tədbirlərindən fərqli olaraq, Forum çoxsaylı dövlət və hökumət başçılarının iştirakı ilə baş tutacaq. Tədbir çərçivəsində 40 əsas sessiya və 350 tərəfdaş tədbiri təşkil olunacaq. Forumun əsas tədbirləri işarət dili də daxil olmaqla səkkiz dildə sinxron tərcümə ilə təmin ediləcək.

Xatırladaq ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının yüksək səviyyədə təşkili məqsədilə WUF13 Azərbaycan Əməliyyat Şirkəti 30 iyun 2025-ci il tarixində fəaliyyətə başlayıb. Qısa müddət ərzində institusional hazırlıq, məkan infrastrukturu planlaşdırılması, əməliyyatların idarə olunması, nəqliyyat, marketinq və kommunikasiya kimi sahələr üzrə kompleks işlər həyata keçirilib. Peşəkar heyətin formalaşdırılması məqsədilə hazırda 300 nəfərə yaxın əməkdaşdan ibarət işçi heyəti formalaşdırılıb. Həmin heyətin üzvləri beynəlxalq tədbirlərin təşkili üzrə təcrübəyə malik peşəkar mütəxəssislərdir.

Beləliklə, WUF13 forumu sülhün, bərpanın və dirçəlişin rəmzi kimi müasir, "ağıllı" və innovativ şəhər konsepsiyasına uyğun inkişafını daha da sürətləndirəcək. Bu mötəbər tədbirin yüksək səviyyədə təşkili ölkəmizin inkişaf strategiyalarının və dayanıqlı şəhərsalma sahəsindəki nailiyyətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması işinə əhəmiyyətli töhfə verəcək.

***E.CƏFƏRLİ***

# Rekord sayda medal!

## İlham Əliyev: Hər dəfə bizim idmançılarımız Dövlət Bayrağını beynəlxalq yarışlarda qaldıranda əlbəttə ki, hər birimiz qürur hissi keçiririk

İdman hər bir ölkənin beynəlxalq səviyyədə layiqli təqdimatı, uşaqların sağlam böyüməsi, gənclərin fiziki cəhətdən güclü, mənəvi cəhətdən vətənpərvər ruhda formalaşmaları üçün çox mühüm vasitədir. Buna görə də respublikamızda idmanın inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib. O cümlədən hər ilin sonunda dövlət başçısı, Milli Olimpiya Komitəsinin (MOK) Prezidenti İlham Əliyevin idman ictimaiyyətinin nümayəndələri ilə görüşməsi, yüksək nəticələr qazanan idmançıları mükafatlandırması gözəl bir ənənəyə çevrilib.

Bu ənənə cari ildə də davam etdirlib. Bir neçə gün bundan əvvəl 2025-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib. Dövlətimizin başçısı, MOK-un prezidenti İlham Əliyev mərasimdəki çıxışında ölkəmizdə idmanın inkişafından məmnunluğunu bildirib və Özünün dəyərli tövsiyələrini verib. “Azərbaycanda idmanın inkişafı dövlət siyasətidir və dövlət xətti ilə bir çox proqramlar icra edilmişdir”, - deyə Prezident İlham Əliyev vurğulayıb.







### Beynəlxalq yarışlarda 2000-dən çox medal qazanılıb

Hazırda bütün istiqamətlərdə böyük uğurlara imza atan müstəqil Azərbaycan dünyada nümunəvi dövlət kimi qəbul edilir. Eyni zamanda, son illərdə respublikamız özünü həm də idman ölkəsi kimi təsdiqləyir. Bütün ölkə boyunca beynəlxalq standartlara cavab verən müasir idman infrastrukturu qurulub. Son 22 ildə Prezident İlham Əliyevin göstərişləri əsasında paytaxt Bakıda və regionlarda müasir Olimpiya İdman Komplekslərinin inşası ölkənin hər yerində böyüməkdə olan nəslin idmanla məşğul olmalarına geniş imkanlar açıb. 2025-ci ildə Gəncədə və Yevlaxda olmaqla daha iki Olimpiya İdman Kompleksinin tikintisi yekunlaşıb. Beləliklə də, bölgələrdə Olimpiya İdman komplekslərinin sayı 46-ya çatıb.

Öz növbəsində geniş əhatə dairəsinə malik olan dövlət qayğısı ölkəmizdə idmanın inkişafına və bunun nəticəsi olaraq idmançılarımızın yüksək nəticələr qazanmalarına güclü stimul verir. Beynəlxalq turnirlərə getdikcə daha çox sayda Azərbaycan idmançısının qatılması və həmin turnirlərdə qazanılan yüksək nəticələr, dünyanən ən mötəbər arenalarında bayrağımızın ucaldıllması, himnimizin səsləndirlməsi bunun əyani göstəricisidir. Ötən il idmançılarımız beynəlxalq yarışlarda təxminən 1700 medal qazanmışdılar. Artıq son günlərini yaşadığımız 2025-ci ildə isə Azərbaycan bayrağı altında müxtəlif turnirlərə qatılan idmançılar rekord sayda - 2000-dən çox medal, o cümlədən də 600-dən çox qızıl medal qazanmağa müvəffəq olublar ki, bu da kifayət qədər böyük uğurdur. İlin idman yekunlarından məmnunluğunu bildirən Prezident İlham Əliyev “Keçən illə müqayisədə medalların sayı daha çoxdur və bu, yəqin ki, təbiidir. Çünki idmanın inkişafına göstərilən diqqət, aparılan dövlət siyasəti, əlbəttə ki, ildən-ilə daha yaxşı nəticələrə gətirib çıxarır”, - deyə vurğulayıb.

Əlbəttə, nüfuzlu beynəlxalq yarışlarda qazanılan qələbələri yalnız idman hadisəsi kimi dəyərləndirmək doğru olmazdı, bunlar həm ictimai önəm kəsb edir. Xüsusilə də vətənpərvərlik hisslərinin gənc nəslə aşılanması üçün idman amili çox böyük məna daşıyır. Fiziki zəhmət və vətənpərvərlik idmanda əsas amillər qismində çıxış edir. Bir tərəfdən minlərlə tamaşaçı önündə arenalara çıxan idmançılar bayrağımızın ucaldılması, himnimizin səsləndirilməsi naminə gərgin mübarizə aparırlar. Eyni zamanda, mötəbər turnirlərdə Azərbaycan adına qazanılan qələbələr tamaşaçı qismində çıxış edən yeniyetmələrdə, gənclərdə vətənpərvərlik hisslərini daha da gücləndirir. Qeyd edək ki, indi idmançılarımız yarışlarda qalib ölkənin təmsilçiləri kimi mübarizə aparırlar. Bu gün Azərbaycan gənclərinin qürür hissi keçirməyə tam mənəvi haqları var. Onlar bu haqqı Vətən müharibəsində, lokal xarakterli antiterror tədbirərində göstərdikləri şücaətlərlə qazanıblar. Hərbiçilərimizin döyüş meydanlarında qazandıqları zəfərlərimizlə idmançılarımızın qələbələrinin bir-birini tamamladığına diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb: “Hər dəfə bizim idmançılarımız Dövlət Bayrağını beynəlxalq yarışlarda qaldıranda əlbəttə ki, hər birimiz qürur hissi keçiririk. Son 5 il ərzində bizim bayrağımız qalib ölkənin bayrağı kimi beynəlxalq arenalarda qaldırılır. Əminəm ki, idmançılar da beynəlxalq yarışlarda iştirak edən zaman bunu hiss edirlər”.

### Dünya idman ictimaiyyətinin böyük inamı

Son illərdə Azərbaycan bir sira dünya çempionatlarına, mötəbər yarışlara ev sahibliyi edən məkana çevrilmişdir ki, bu da beynəlxalq idman ictimaiyyətin ölkəmizə artan inamını təsdiqləyir. Respublikamız Birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına böyük uğurla ev sahibliyi etməklə bu sahədə yaxşı təcrübə qazanıb və özünün güclü potensiala malik dövlət kimi təsdiqləyib. Respublikamızda ənənəvi olaraq keçirilən Formula 1 yarışı bu il də Bakının ev sahibliyi ilə uğurla baş tutdu. Dünyada böyük tamaşaçı auditoriyasına malik olan Formula 1 yarışı ölkəmizin və paytaxtımızın təqdimatı baxımından mühüm əhəmiyyətə malikdir. Qeyd edək ki, birinci Formula 1 yarışından sonra ölkəmizə gələn xarici turistlərin sayı 20 faiz artıb. Cari ildə təxminən 20 min insan canlı olaraq bu yarışı izləyib. Bütün biletlər əvvəlcədən satılmışdı. Maraq böyük olduğuna görə əlavə tribunaların quraşdırlmasına ehtiyac yarandı.

Ümumiyyətlə, Azərbaycan Formula 1 tarixində şəhər həlqəsinin gözəl nümunəsini təqdim edir. Böyük həyəcanla izlənilən yarışlar zamanı tamaşaçılar paralel şəkildə şəhərimizin gözəllikləri ilə tanış olmaq imkanı qazanırlar. Bu təcrübə dünyada böyük maraqla qarşılanıb. Təsadüfi deyildir ki, son vaxtlarda təşkilatrçılara ayrı-ayrı aparıcı ölkərdən məhz şəhər yarışlarının təşkili ilə bağlı müraciətlər artıb. Bütün bunlar onun təsdiqidir ki, beynəlxalq səviyyədə ölkəmizin nüfuzu artıb, dünya Bakının təcrübəsindən bəhrələnməyə çalışır.

Bu il ölkəmizdə, həmçinin ilk dəfə olaraq UFC üzrə beynəlxalq turnir keçirilib. Bu, dünyada ən populyar idman yarışıdır və adətən bu yarışların əksər mərhələləri Amerikada və yaxud ən inkişaf etmiş ölkələrdə baş tutur. Artıq Bakı da dünyada yüksək inkişaf səviyyəsinə çatmış meqapolis kimi qəbul olunur. Prezident İlham Əliyevin bildirdiyi kimi, minlərlə iştirakçının, xarici qonağın iştirakı ilə keçirilən və dünya mediası tərəfindən işıqlandırılan belə bir yarış ölkəmizin təqdimatının bir növüdür.

### Ölkəmizin ev sahibliyi etdiyi əsas idman yarışı - III MDB Oyunları

Tarixə çevrilməkdə olan 2025-ci ildə ölkəmizin ev sahibliyi etdiyi əsas idman yarışı isə III MDB Oyunları olub. Yarışlar “2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı” olan Gəncə şəhərində və ölkəmizin digər 6 şəhərində keçirilib O cümlədən Gəncədə 8, Mingəçevirdə 4, Qəbələdə 4, Şəkidə 3, Göygöldə 2, Yevlaxda 1 və Xankəndidə 1 idman növü üzrə yarışlar təşkil olunub.

Müstəqil Dövlətlər Birliyinə daxil olan 8 ölkənin və Oyunlara qatılan daha 5 dövlətin idmançıları 23 idman növü üzrə yarışlarda öz məharətlərini, əzmkarlıqlarını nümayiş etdiriblər.

Azərbaycan idmançıları III MDB Oyunlarında da çoxlu sayda qələbə sevinci yaşayıblar. Azərbaycan Oyunları, ümumilikdə, 184 medalla başa vurub. Bunların 33-ü qızıl, 56-sı gümüş, 95-i isə bürünc mükafatdır. Ölkəmiz bu göstərici ilə ümumi medal sıralamasında 2-ci yeri tutub.

Çıxışında ölkəmizin gələcəkdə yeni yarışlara ev sahibliyi edəcəyini deyən Prezident İlham Əliyev vurğulayıb: “Ölkəmizdə yüzlərlə idman, beynəlxalq idman yarışları keçirilmişdir və gələn il də yarışların keçirilməsi gözlənilir. Xüsusilə mən ölkəmizdə ilk dəfə olaraq keçiriləcək Xizək üzrə Dünya Kubokunu qeyd etmək istərdim. Çünki bu, ilk dəfə olaraq keçiriləcək tədbirdir və ilk ildən dünya kuboku səviyyəsində Qusarda, Şahdağ Xizək Kurortunda keçiriləcək”.

Daha bir mühüm yenilik isə ondan ibarətdir ki, Qarabağda və Şərqi Zəngəzurda böyük infrastruktur işləri görülür. Dövlətimizin başçısının məmnunluq hissi ilə bildirdiyi kimi, artıq orada da - Köndələnçay su anbarında, Suqovuşan su anbarında yarışlar keçirilir. Gələcəkdə Sərsəng su anbarında da avarçəkmə üzrə yarışlar keçirilə bilər.

*Mübariz ABDULLAYEV*

# İkitərəfli münasibətlərdə yeni strateji ruh...

## “907-ci düzəliş”in aradan qaldırılması zərurəti

### Konqresin saytında düzəlişin ləğvi barədə qanun layihəsinin mətni yerləşdirilib

Bakı-Vaşinqton münasibətlərində müşahidə olunan yeni və daha praqmatik strateji ruh tərəflər arasında yeni münasibətlər sistemi formalaşdırıb. Prezident İlham Əliyevin ABŞ-a səfəri, Prezident Donald Tramp ilə görüşləri, eləcə də ABŞ dövlət başçısının Azərbaycan Prezidentinə ünvanladığı çoxsaylı məktublar bunu deməyə əsas verir. Qlobal geosiyasi transformasiyalar, yeni enerji təhlükəsizliyi, regional sabitlik və nəqliyyat-logistika xətlərinin şaxələndirilməsi kimi amillər iki dövlət arasında işgüzar münasibətlərinə yeni baxış bucağı formalaşdırır. Bu kontekstdə tərəflərin qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq xəttini ön plana çəkməsi dövlətlərarası münasibətlərdə mövcud olan kiçik mənfi effektlərin tədricən neytrallaşdırılmasına xidmət edə bilər.

Xüsusilə də ABŞ Konqresi tərəfindən 1992-ci ildə “Azadlığı müdafiə aktı”na əlavə edilən və Azərbaycana ABŞ-ın birbaşa dövlət yardımına qadağa qoyan qanunvericilik aktının - “907-ci düzəliş” bu mənfi irsin simvolu kimi çıxış edir. Regionda yeni reallıqların yarandığı, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tam təmin etdiyi bir şəraitdə bu düzəlişin mövcudluğu həm siyasi, həm də hüquqi baxımdan aktual görünmür. Bakı regional sülhün, əməkdaşlığın və Qərblə Şərq arasında strateji körpünün əsas təminatçılarından birinə çevrildiyi halda, 907-ci düzəliş kimi selektiv və ədalətsiz yanaşmaların davam etdirilməsi ABŞ-ın öz maraqları ilə də uzlaşmır. Bu baxımdan, sözügedən düzəlişin ləğvi Bakı-Vaşinqton əlaqələrində yeni mərhələnin başlanğıcı olmaqla yanaşı, tərəflər arasında qarşılıqlı etimadın möhkəmlənməsinə və strateji əməkdaşlığın institusional əsaslar üzərində inkişafına mühüm töhfə verə bilər.

**907-ci düzəliş: yeni il köhnə, mənfi mirası aradan qaldıracaq...**

Yeri gəlmişkən, ABŞ Konqresinin saytında Azərbaycana yardımla bağlı məhdudiyyətin ləğvi barədə qanun layihəsinin mətni yerləşdirilib. Sənəddə vurtğulanır ki, Azərbaycan Respublikası müstəqillik qazandığı gündən bəri ABŞ və onun tərəfdaşları üçün möhkəm müttəfiq olaraq qalıb, müharibə və sülh dövründə mühüm əməkdaşlıq həyata keçirib. Vurğulanır ki, Azərbaycan Cənubi Qafqazda sülhün prioritet olduğunu açıq şəkildə nümayiş etdirib və müvafiq sərhədlər, ərazi bütövlüyü Azərbaycan və Ermənistan tərəfindən razılaşdırılan sülh sazişi ilə təsbit olunub. Bu baxımdan qanun layihəsinə əsasən, Azadlığa Dəstək Aktının 907-ci maddəsi ləğv edilir və qanunun mündəricatında həmin maddə ilə əlaqəli bənd çıxarılır.



Qeyd edək ki, Konqresə Azərbaycana yardımla bağlı məhdudiyyətlərin ləğvini nəzərdə tutan qanun layihəsi dekabrın 9-da təqdim edilmişdi. Qanun layihəsinin təşəbbüskarı Respublikaçılar Partiyasından Florida ştatını təmsil edən konqresmen Luna Anna Paulinadır.

Xatırladaq ki, bu ilin avqust ayında ABŞ Prezidenti Donald Tramp tərəfindən “Azadlığa dəstək qanununa” 907-ci düzəlişin tətbiqinin müvəqqəti olaraq dayandırılması ilə bağlı sərəncam imzalanmışdı. Prezidentin qərarında qeyd olunurdu ki, bu addım ABŞ-ın beynəlxalq terrorizmə qarşı səylərinin dəstəklənməsi üçün vacibdir və ABŞ Silahlı Qüvvələrinin və koalisiya tərəfdaşlarının hazırlığını dəstəkləyir. Eləcə də vurğulanırdı ki, bu qərar Azərbaycanın sərhəd təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıyır - Ermənistan və Azərbaycan arasında aparılan sülh danışıqlarını zəiflətmir və Ermənistan əleyhinə istifadə olunmayacaq.

**Bakı-Vaşinqton əlaqələri: əməkdaşlığın inkişafının perspektivləri aydın və çoxşaxəlidir**

Göründüyü kimi Azərbaycan dövlətinin yürütdüyü praqmatik, əməkdaşlığa istinad edən, xüsusilə bərabərhüquqlu şəkildə qarşılıqlı maraqların qorunmasını özündə birləşdirən siyasət ölkəmizi qlobal dünyada etibarlı tərəfdaş kimi xarakterizə edir. Bakı bölgədə formalaşan reallıqlar əsasında vacib və müasir çağırışlara əsaslanan konfiqurasiya yaradır, yeni siyasi-iqtisadi nizama töhfə verir. Bu isə, əməkdaşlıqda maraqlı olan dövlətlər üçün əlaqələrin daha da güclənməsi perspektivini ön plana çəkir. Həm çoxtərəfli, həm də ikitərəfli əlaqələrin inkişafına xüsusi önəm verən Azərbaycanın bu geniş diapazonlu fəaliyyəti dünyanın aparıcı dövlətləri tərəfindən də təqdir olunur. Bu mənada, ABŞ-ın rəsmi Bakı ilə strateji təmasların gücləndirilməsində maraqlı olması təbiidir - qeyd edilməlidir ki, Donald Trampın yenidən dövlət başçısı seçilməsi ilə ABŞ - Azərbaycan münasibətləri yeni mərhələyə qədəm qoyub. Avqustda Vaşinqtonda keçirilən görüşlər, iki ölkə prezidentlərinin Azərbaycan ilə ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumunu imzalaması münasibətləri yeni bir mərhələyə daşıyır. ABŞ ilə Azərbaycan arasında əməkdaşlığın inkişafının perspektivləri aydın və çoxşaxəlidir - rəsmi Vaşinqton ölkəmizin regionda yaratdığı yeni reallıqları yüksək dəyərləndirir. Bu isə ABŞ-ın Azərbaycanın yaxın tərəfdaşı olması həqiqətini növbəti dəfə nümayiş etdirməklə yanaşı, əlaqələri daha da möhkəmləndirməkdə maraqlı olduğunu sübut edir.

**Münasibətlərə yeni baxış: strateji imkanlar genişlənir...**

İkitərəfli münasibətlərdə mənfi nüans kimi qiymətləndirilən bu düzəliş ilk dəfə 1992-ci ildə senator Con Makkeyn tərəfindən təklif edilmişdi. Sonradan isə senator Con Kerrinin və erməni lobbi təşkilatlarının dəstəyi ilə konqresmen Ueyn Ouens (Yuta ştatı) tərəfindən Konqresdə irəli sürüldü və erməni lobbi təşkilatlarının güclü təzyiqi nəticəsində Konqres tərəfindən qəbul edildi. 11 sentyabr 2001-ci ildə terror aktından sonra Konqres prezidentə düzəlişi ləğv etmək hüququ verən qanun qəbul etdi. Cozef Baydenin ABŞ prezidenti seçilməsinin ardından isə rəsmi Vaşinqtonun Azərbaycana dövlət yardımı göstərməsini qadağan edən bu düzəliş ləğv edilmədi.

Azərbaycan-ABŞ münasibətlərində keçmişin mənfi mirası olan 907-ci düzəlişin tətbiqinin Tramp tərəfindən məhz Prezident İlham Əliyevlə görüş çərçivəsində dayandırılması əhəmiyyətli rəmzi məna daşıyır, ABŞ-n Azərbaycanla əlaqələrin inkişafına verdiyi önəmin təcəssümünü özündə ifadə edir. Düzəlişin ləğvi bütövlükdə regionun inkişafında yeni bir cığır açacaq. O baxımdan ki, Cənubi Qafqazda dayanıqlı sabitliyin qurulması, münaqişə dövrünün qalıqlarının aradan qaldırılması həm inteqrasiya prosesinin sürətlənməsinə, həm də qlobal gündəliyin daha müsbət çalarlar qazanmasına imkan verəcək. Zəngəzur dəhlizinin (TRIPP) açılması regional iqtisadi əməkdaşlığı yeni mərhələyə daşıyacaq və Şərq-Qərb nəqliyyat xəttində yeni strateji imkanlar yaradacaq. Bu isə ABŞ-ın Cənubi Qafqaz ilə əməkdaşlıq prioritetlərini daha da genişləndirir

*P.İSMAYILOV*

# Sülh prosesində böyük irəliləyiş...

## 2025-ci ildə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması üçün vacib addımlar atılıb

Cənubi Qafqazda dayanıqlı sülhün təmin olunması üçün münbit zəmin yaranıb. Azərbaycanın məqsədyönlü siyasəti nəticəsində bu istiqamətdə ciddi nəticələr əldə edilib. Vətən müharibəsindən sonra yaranan reallıqlar ölkəmizin yalnız hərbi üstünlüyünün deyil, həm də siyasi gücünün ifadəsidir. Azərbaycan Prezidenti İlham Əliyevin ardıcıl sülh təşəbbüsləri bölgədə uzun illərdir davam edən hərbi münaqişəni dayandırmaqla yanaşı, qarşılıqlı etimadın əsaslarını müəyyənləşdirir.

### 8 avqust Vaşinqton razılaşmalarının önəmi...

Münaqişə başa çatdıqdan sonra xalqımızın uzun illər ərzində məruz qaldığı əzab-əziyyətə, məhrumiyyətlərə və dağıntılara baxmayaraq, Azərbaycan tərəfindən Ermənistanla davamlı sülhün təmin edilməsi istiqamətində fəal işlər aparılıb. Məqsəd regionun sülh və əməkdaşlıq məkanına çevrilməsidir. Azərbaycan regionda sülhün bərqərar olması naminə irəli sürülən bütün ədalətli beynəlxalq təşəbbüsləri dəstəkləyib. Lakin bu prosesdə tərəflərin heç bir vasitəçi olamadan birbaşa dialoqu müsbət nəticələr verib. 8 avqust Vaşinqton razılaşmaları da bunun göstəricisidir.

Yeri gəlmişkən, xarici işlər naziri Ceyhun Bayramov 2025-ci ilin yekunlarına həsr olunan mətbuat konfransında Azərbaycanla Ermənistan arasında sülh prosesindən ətraflı bəhs edib. C.Bayramov qeyd edib ki, əvvəlki illərdə olduğu kimi şanlı Zəfərin 5 illiyinin qeyd olunduğu 2025-ci ildə də regionda dayanıqlı və qalıcı sülhün təmin edilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olub. Bu çərçivədə, Azərbaycan ilə Ermənistan arasında mümkün sülhün suverenlik və ərazi bütövlüyü prinsipləri əsasında normallaşdırılması, 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilmiş Zirvə görüşünün nəticələri, sülh sazişi layihəsinin paraflanması, eləcə də ATƏT-in Minsk prosesinin və əlaqədar strukturların bağlanması istiqamətində görülən işlər diqqətə çatdırılıb.

Nazirin sözlərinə görə, 2025-ci ildə Ermənistanla sülh prosesində böyük irəliləyiş əldə olunub. Azərbaycan tərəfindən beynəlxalq sülh və sabitliyin təşviqi, beynəlxalq iqtisadi əməkdaşlıq, vasitəçilik səyləri ölkənin nüfuzunun daha da güclənməsinə töhfə verib. C.Bayramov deyib ki, bütün bunlar 2025-ci ildə müşahidə olunan müsbət dinamikanın inkişafının göstəricisidir: “Bu, gələcəkdə daha da genişlənmə ehtimalının əsasını qoyur. Konkret misallara gəldikdə, məsələ ilə bağlı ekspertlər və beynəlxalq mərkəzlər artıq iki dəfə Ermənistana və Azərbaycana səfər ediblər. Bu səfərlər nəticəsində iş birliyi və qarşılıqlı anlaşma istiqamətində müəyyən irəliləyişlər müşahidə olunub. İnanmaq olar ki, bu proseslər 2026-cı ildə də davam edəcək”.

### Rəsmi Bakının mövqeyi beynəlxalq hüquq normalarına əsaslanır

Məlumdur ki, Ermənistandakı revanşist əhval-ruhiyyəli qüvvələr, onların xaricdəki havadarları dünya birliyinin 44 günlük müharibənin və 23 saatlıq antiterror tədbirlərinin nəticələrini tanımamasına nail olmağa çalışırdılar, bəzi ölkələrin parlamentlərində hansısa bəyanatlar, qətnamələr qəbul olunurdu. Ancaq beynəlxalq hüquq çərçivəsində davranan, ədalətli müharibənin qalibi olan Azərbaycan təzyiqlər qarşısında geri çəkilməyərək öz həqiqətlərini müdafiə etməyi bacardı. Xatırladaq ki, Azərbaycan sülh sazişi imzalamaq üçün qarşı tərəfə beş bənddən ibarət təkliflərini təqdim etmişdi. Bu baza prinsiplərində ilk olaraq dövlətlərin bir-birinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması əks olunub. İkincisi, dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsidir. Üçüncüsü, dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək, dördüncüsü, dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulmasıdır. Beşinci bənd isə nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulmasından ibarətdir. İki dövlət ötən müddət ərzində məhz bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar apararaq ikitərəfli sülh sazişi ilə bağlı danışıqları yekunlaşdırdılar. Çünki rəsmi Bakının sülh sazişinin imzalanması üçün irəli sürdüyü təkliflər beynəlxalq hüquq normalarına əsaslanıb. Tərəflər bu ilin mart ayında sülh sazişi layihəsinin mətninin razılaşdırıldığını bəyan ediblər.

Beləliklə, postmüharibə dövründə Azərbaycan qalib tərəf olmasına rəğmən, beynəlxalq prinsiplərdən çıxış etməklə sülh təşəbbüsünü irəli sürüb və daim sülh gündəliyinə dəyişməz sadiqlik nümayiş etdirib. Avqustun 8-də isə Vaşinqtonda, Ağ Evdə möhtəşəm bir tarix yazıldı. Ağ Evdə imzalanan sənədlər, ABŞ Prezidenti Donald Tramp tərəfindən dövlətimizin başçısına göstərilən xüsusi ehtiram Azərbaycan diplomatiyasının növbəti uğuru oldu.




### Nazir: Ermənistanla digər sahələrdə əməkdaşlıq üçün potensial var

Vaşinqton razılaşmasından sonra qarşılıqlı etimad mühitinin formalaşması üçün praktiki addımlar atılır. Hökumətlər bu yöndə müvafiq işlər görürlər. Bir müddət öncə Azərbaycan və Ermənistanın vətəndaş cəmiyyətinin nümayəndələrinin qarşılıqlı səfərləri sülh yolunda önəmli addımdır. Eləcə də, Ermənistana yük tranziti ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması məhz bunun göstəricisidir. Belə bir ilk tranzit Qazaxıstanın Ermənistana taxıl yükü olub. Bu, həmçinin Azərbaycan ilə Ermənistan arasında sülhün yalnız kağız üzərində deyil, həm də praktikada olduğunun müsbət nümunəsidir. Rusiyadan da yüklərin Ermənistana Azərbaycan ərazisi vasitəsilə daşınması həyata keçirilir. Eyni zamanda, Azərbaycan benzini Gürcüstan vasitəsilə Ermənistana satılır. Bu, o deməkdir ki, artıq regionda ticarət yolları açılır, sərhədlər yumşalır, qarşılıqlı etimadın formalaşması üçün mühüm zəmin yaranıb. Zəngəzur dəhlizinin açılması isə regionda iqtisadi əməkdaşlıqla yanaşı sülh və sabitliyi daha da gücləndirəcək.

Mövzu ilə bağlı Ceyhun Bayramov mətbuat konfransında bildirib ki, bir müddət əvvəl Azərbaycandan Ermənistana neft məhsullarının göndərilməsi prosesi sıfırdan yaradılıb və iki ölkə arasında iqtisadi əməkdaşlığın yeni bir nümunəsi kimi formalaşıb. Belə bir təşəbbüs Ermənistan tərəfindən başlayıb, Azərbaycan isə xoş niyyət göstərərək bu prosesin başlanmasına səbəb oldu. O qeyd edib ki, Ermənistanla digər sahələrdə əməkdaşlıq üçün potensial var. Ticarət, texniki və digər sahələrdə əməkdaşlıq üçün müraciət olarsa, Azərbaycan tərəfi bu imkanları nəzərdən keçirə bilər. Lakin burada gözləntilər adekvat olmalıdır, çünki proseslər hələ formalaşma mərhələsindədir və spesifik texniki tələblər mövcuddur. “Bundan əlavə, bu təşəbbüsün siyasi və psixoloji əhəmiyyəti də böyükdür. Məsələn, Azərbaycan məhsullarının Ermənistana daxil olması, əvvəlki münasibətlər fonunda müsbət bir inkişaf kimi qiymətləndirilir. Lakin hələ də cəmiyyətdə belə fikirlər var ki, bəzi məhsulların qəbuluna qarşı çıxanlar ola bilər. Bu cür hallar azdır, amma mövcuddur. Ümumilikdə bu əməkdaşlığın davam etməsi gözlənilir, amma proseslər və nəticələr barədə gözləntilər real və uyğun olmalıdır”, - deyə xarici işlər naziri vurğulayıb.

Beləliklə, Prezident İlham Əliyevin siyasəti nəticəsində Cənubi Qafqaz hərbi toqquşmalar məkanından əməkdaşlıq platformasına çevrilməkdədir. Azərbaycanın sülh təşəbbüsləri bu gün həm beynəlxalq aləmdə, həm də region müstəvisində etimad qazanıb. Yekun sülh müqaviləsini imzalamaq üçün isə rəsmi Yerevan üzərinə düşən öhdəlikləri yerinə yetirməlidir. Bu da ondan ibarətdir ki, Ermənistan konstitusiyasında və digər qanunvericilik aktlarından Azərbaycana qarşı ərazi iddiaları çıxarılmalıdır.

*Nardar BAYRAMLI*

---

# Azərbaycan Avropa Siyasi Birliyində fəal təmsil olunur

## Ölkəmiz bu platformada hər zaman arzuolunan tərəfdaş hesab edilir

Hazırda beynəlxalq münasibətlər sistemində çox ciddi geostrateji dəyişikliklər baş verir. Məhz bu dəyişikliklər və digər proseslərin fonunda yeni çağırışlar meydana gəlir. Belə bir geostrateji şəraitdə milli dövlətlərin qlobal sistemdə yeri və rolu məhz həyata keçirilən müstəqil siyasətdən də asılıdır. Bu kontekstdə Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın yaratdığı mənzərə unikal, mütərəqqi nümunə kimi çıxış edir.

Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Bu isə həm də regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir. Digər tərəfdən, milli maraqlara uyğun olaraq reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlərini, həm də beynəlxalq platformalar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir.

### 2028-ci ildə Azərbaycan Avropa Siyasi Birliyinin sammitinə ev sahibliyi edəcək

Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Cənubi Qafqazda yeni mənzərə yaranıb. Bu, dövlətimizin yaratdığı yeni reallıqlardan ibarətdir. Torpaqlarını işğaldan azad etdikdən sonra Azərbaycanın nəinki regionda, bütövlükdə, beynəlxalq müstəvidə mövqeləri əhəmiyyətli dərəcədə güclənib. Bu amil dövlətimizin beynəlxalq təşkilatlarda təmsilçiliyində də mühüm rol oynayır. Azərbaycan hazırda regional miqyaslı, qlobal xarakterli əməkdaşlıq platformasının mərkəzi oyunçusu rolunu oynayır. Məhz bunun nəticəsində də dünyada Azərbaycanın dostları artmaqdadır. Bir çox ölkələr Azərbaycanı dost və etibarlı tərəfdaş hesab edir. Ölkəmizin nüfuzu müxtəlif ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə də xüsusi vurğulanır. Eləcə də ölkəmizə mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etmək üçün etimad göstərilir.

Yeri gəlmişkən, Avropa Siyasi Birliyinin 12-ci Zirvə Toplantısı Azərbaycanda keçiriləcək. Bu barədə 2025-ci ilin yekunlarına həsr olunmuş mətbuat konfransında məlumat verən xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, cari ildə Azərbaycanla Avropa İttifaqı arasında qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq istiqamətində müsbət dinamika müşahidə olunub: “Hazırda yeni saziş üzrə iş aparılır. Azərbaycan Avropanın 10 ölkəsi ilə strateji tərəfdaşdır”. Azərbaycan Avropa İttifaqı ilə münasibətlərində daim beynəlxalq hüququn norma və prinsiplərinə, qarşılıqlı hörmət və bərabərhüquqluluq əsasında qurulan əməkdaşlığa üstünlük verir. Bu mövqe imzalanan sənədlərdə, diplomatik danışıqlarda və parlamentlərarası münasibətlərdə ardıcıl şəkildə əksini tapıb.

Xatırladaq ki, Azərbaycanın 2028-ci ildə Avropa Siyasi Birliyinə ev sahibliyi edəcəyi ilə bağlı qərar bu ilin may ayında elan olunub. Belə ki, mayın 16-da Albaniyanın paytaxtı Tiranada Avropa Siyasi Birliyin 6-cı Zirvə toplantısı keçirilib. Toplantıdan bir neçə gün sonra Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta 2028-ci ildə Zirvə toplantısının Azərbaycanda keçiriləcəyini bəyan edib. O, sammitin 2026-cı ildə Ermənistan və İrlandiyada, 2027-ci ildə İsveçrə və Yunanıstanda, 2028-ci ilin birinci yarısında Azərbaycanda, ikinci yarısında isə Latviyada keçiriləcəyini vurğulayıb.

### Ölkəmizlə Aİ arasında münasibətlər inkişaf edir

Qeyd edək ki, bu mötəbər tədbirin Bakıda keçirilməsi Azərbaycanla Avropa ölkələri arasında münasibətlərin inkişaf tendensiyasından xəbər verir. Belə ki, Prezident İlham Əliyevin Tiranada Avropa Siyasi Birliyinin Zirvə toplantısı çərçivəsində keçirdiyi çoxsaylı ikitərəfli görüşlər, bu görüşlərdə səmimi münasibətlər və dialoqlar Azərbaycanla “köhnə qitə” arasında münasibətlərdə yeni səhifənin açıldığını nümayiş etdirib. Tiranada Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşdə Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrə mühüm əhəmiyyət verdiyini deyərək, ölkəmizin Avropanın enerji təhlükəsizliyində roluna toxunub. Dövlət başçısı Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu da diqqətə çatdırıb.

Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin oktyabr ayında Kopenhagen şəhərində keçirilən Avropa Siyasi Birliyinin 7-ci Zirvə toplantısında iştirakı da ölkəmizin qlobal və regional diplomatiyadakı fəal rolunu bir daha nümayiş etdirib. Bu formatda keçirilən tədbir yalnız siyasi baxımdan deyil, həm də iqtisadi və təhlükəsizlik sahələrində gələcək əməkdaşlıqların qurulması üçün strateji platforma olaraq çıxış edir.



Dövlət başçısının bu sammitdə də apardığı ikitərəfli görüşlər Azərbaycanın beynəlxalq tərəfdaşlar arasında artan nüfuzunun və ona olan marağın bariz nümunəsinin təsdiqidir. Prezidentin İtaliya, Fransa Niderland, Ukrayna, Moldovanın dövlət və hökumət başçıları, Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşlərində Azərbaycanın vacib və etibarlı tərəfdaş olması xüsusi vurğulanıb.

### Avropa Siyasi Birliyi nə məqsədlə yaradılıb?

Qeyd edək ki, Avropa Siyasi Birliyi nisbətən gənc beynəlxalq platformadır. 2022-ci ildə yaradılan bu platformanın əsas məqsədi Avropanın siyasi məkanında həm Avropa İttifaqına üzv, həm də üzv olmayan dövlətləri ortaq dəyərlər, təhlükəsizlik və enerji məsələləri ətrafında birləşdirməkdir. Yaranan gündən etibarən qurum aktual mövzuların müzakirəsini ön planda tutur - Ukrayna müharibəsi, enerji böhranı və Avropada artan geosiyasi parçalanma fonunda Avropa Siyasi Birliyi bir növ “siyasi dialoq və həmrəylik platforması” kimi meydana çıxıb. Platforma Avropanın sərhədləri daxilində demokratiya, təhlükəsizlik, enerji müstəqilliyi və geosiyasi sabitlik məsələlərinin müzakirə olunduğu ən geniş siyasi platforma hesab olunur. Qurumun ilk toplantısı 2022-ci ilin oktyabrında Praqada keçirilib. Azərbaycan kimi mühüm tərəfdaşların iştirakı isə bu platformalara real məzmun qazandırır. Çünki Azərbaycan bu gün mühüm bir coğrafiyada formalaşdırdığı yeni siyasi-iqtisadi reallıqlarla Avrasiyanın yeni gündəmini yaradır. Yeni regional təhlükəsizlik arxitekturası qurmaqla, Zəngəzur dəhlizi (TRİPP) ideyasını gerçəkləşdirməklə, Orta Dəhlizin diversifikasiyasını həyata keçirməklə, Şərq-Qərb kontenti üzrə əlaqələrin inteqrasiyasına yeni bir nəfəs verməklə Azərbaycan qlobal cənub ilə Qlobal Şimal, Şərq ilə Qərb arasında körpü rolunu oynayır.

Azərbaycan bu platformada hər zaman arzuolunan tərəfdaş və etimada layiq qonaq kimi iştirak edir. Avropa Siyasi Birliyinin təşkilatçılarının Bakını bu müzakirələrə dəvət etməsi Azərbaycanın regionda sabitləşdirici və birləşdirici roluna verilən qiymətin təzahürüdür. Prezident İlham Əliyevin Zirvə toplantılarında iştirakı zamanı qarşı tərəfin təşəbbüskarlığı, Avropa liderlərinin görüşlərə xüsusi maraq göstərməsi diqqətçəkicidir. Avropa liderləri anlayırlar ki, Qafqazda sülh və enerji təhlükəsizliyi məsələləri Azərbaycanın iştirakı olmadan həll edilə bilməz. Bakı enerji təhlükəsizliyi, nəqliyyat və regional sabitlik məsələlərində Avropa üçün əvəzolunmaz tərəfdaşa çevrilib.

Eyni zamanda, Azərbaycan bu platformada öz milli maraqlarını qorumaqla yanaşı, regionda dialoqun, qarşılıqlı anlaşmanın və əməkdaşlığın təşviqinə mühüm töhfə verir. Bu gün Avropa ölkələri üçün Azərbaycan təkcə enerji ixracatçısı deyil, həm də sülh və sabitliyin qarantı kimi dəyərləndirilir. Azərbaycanın müstəqil siyasət aparması, qərarlarını xarici təzyiqlərdən asılı olmadan verməsi Avropada hörmət və etimadla qarşılanır.

*Nardar BAYRAMLI*

# 8 illik xidmət...

## Xeyli sayda sahibkarın hüquqları bərpa edilib

Mikro, kiçik və orta biznesə (KOB) ünvanlı dəstək və xidmətlərin göstərilməsi üzrə ixtisaslaşmış qurumun - Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) fəaliyyətə başlamasından 8 il ötür. Prezidentin 28 dekabr 2017-ci il tarixli Fərmanı ilə yaradılmış agentlik dövlət başçısının rəhbərliyi ilə sahibkarlığın, xüsusilə KOB sektorunun inkişafına göstərilən ardıcıl və sistemli dövlət dəstəyinin mühüm göstəricilərindən olmaqla ötən 8 ildə KOB sektorunun inkişafında institusional dayağa çevrilib.

### Sahibkarlara 1,4 milyondan çox xidmət göstərilib

Ötən 8 ildə KOB-lara göstərilən dəstək və xidmətlərin daha əlçatan olması məqsədilə Bakı şəhərini və ölkə regionlarını əhatə edən geniş infrastruktur şəbəkəsi formalaşdırılıb. Hazırda sahibkarlara vahid məkanda “G2B” və “B2B” xidmətlərin göstərildiyi KOB evləri Bakı, Xaçmaz, Yevlax və Şuşa şəhərlərində fəaliyyət göstərir. Ötən dövrdə KOB evlərində sahibkarlara dövlət və özəl qurumlar tərəfindən 1,4 milyondan çox xidmət göstərilib. “Gəncə KOB evi”nin təşkili üzrə işlər tamamlanıb və yaxın vaxtlarda sahibkarların istifadəsinə veriləcək.




Sahibkarların biznes sahəsində bilik və bacarıqlarının artırılmasına olan ehtiyacı nəzərə alınaraq ötən dövrdə bu istiqamət KOBİA-nın fəaliyyətində prioritet olub. Agentliyin KOB inkişaf mərkəzlərində indiyədək sahibkarlara ödənişsiz olaraq 10 minə qədər məsləhət xidməti göstərilib, 64 min 800 sahibkara 5200 təlim keçirilib. Ənənəvi təlim mexanizmləri innovativ və rəqəmsal həllərlə tamamlanaraq sahibkarlara daha çevik və rahat imkanlar yaradılıb. Azərbaycan Texniki Universitetində yaradılmış KOB Model Müəssisə praktik təlimləri ilə sahibkarlara səmərəli və qənaətli idarəetmə üsullarını

### 64 min 800 sahibkara 5200 təlim keçirilib

öyrətməklə biznesin bilik və bacarıqlarını təkmilləşdirib. 180 təlim videosu, təlim materialları və özünüqiymətləndirmə testlərinin olduğu video təlim platformasından ötən müddətdə 2200-dən artıq sahibkar faydalanıb.

Ölkənin 47 şəhər və rayonunda, o cümlədən işğaldan azad edilmiş Laçın, Zəngilan, Kəlbəcər və Füzulidə sahibkarlara yerində xidmət edən 48 KOB dostu fəaliyyət göstərir. KOB dostu şəbəkəsi sahibkarların dövlət və özəl qurumlarla effektiv əlaqələndirilməsinə, qarşılaşdıqları çətinliklərin operativ həllinə töhfə verərək zamanla onların ən etibarlı tərəfdaşına çevrilib.

KOB subyektlərinin ehtiyaclarının və çətinliklərinin öyrənilməsi və aidiyyəti üzrə çatdırılması üçün KOBİA tərəfindən bir sıra effektiv kommunikasiya kanalları yaradılıb. 22 500-dən çox sahibkarın iştirakı ilə Bakı və regionlarda 700-dək sahəvi görüş keçirilib. KOBİA yanında İctimai Şura çərçivəsində 50-yə yaxın ictimai müzakirə təşkil edilib. Bu görüşlərdə sahibkarların çətinlikləri öyrənilib, dövlət qurumları ilə birgə müzakirə edilib və həllinə dəstək göstərilib, onlar maarifləndirilib. 20 000-dək sahibkarın iştirakı ilə sorğular keçirilib.

KOB-ların maraqlarının müdafiəsi KOBİA-nın fəaliyyətinin mühüm istiqamətidir və ötən 8 ildə bu sahədə xeyli sayda sahibkarın hüquqları bərpa edilib. KOBİA “Keyfiyyətin idarə edilməsi, Müştəri məmnuniyyəti, Təşkilatlarda şikayətlərə baxılması üzrə təlimatlar” üzrə beynəlxalq ISO sertifikatı əldə edib.

KOB sektorunun rəqəmsallaşması sahəsində də mühüm addımlar atılıb. Biznesin inkişafının bütün mərhələlərində sahibkarlara geniş çeşidli elektron xidmətlər təmin edən e-KOB evi portalı beta versiyada istifadəyə verilib. Yeni ildən portal tam fəaliyyət göstərəcək.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti üzrə hazırlanmışdır**

### Sahibkarlıq subyektlərinin 99,7 faizini KOB subyektləri təşkil edir

KOB-lara dəstək, yerli və xarici sahibkarlar arasında əlaqələrin genişləndirilməsi, birgə layihələrin icrası, təcrübə mübadiləsi və s. kimi istiqamətlər əhatə edən 34 ölkənin müvafiq qurumları və 27 yerli və beynəlxalq təşkilatlar ilə 122 Anlaşma Memorandumu və sənədlər imzalanıb. Qətər, Səudiyyə Ərəbistanı, Ukrayna, İraq, Vyetnam, Birləşmiş Ərəb Əmirlikləri ilə 6 birgə biznes şurası yaradılıb. KOBİA-nın təşkilatçılığı və iştirakı ilə indiyədək 15-dən artıq beynəlxalq tədbir keçirilib. COP29 çərçivəsində KOBİA-nın irəli sürdüyü “KOB-ların yaşıl keçidi üçün Bakı İqlim Bəyannaməsi”nə artıq 30-a yaxın yerli və beynəlxalq tərəfdaş qoşulub.

Bu ardıcıl və sistemli fəaliyyət nəticəsində 2018-2024-cü illərdə KOB-ların sayı 74 faizə yaxın artaraq 424 mini ötüb. Hazırda ölkə üzrə qeydiyyatdan keçmiş sahibkarlıq subyektlərinin 99,7 faizini KOB subyektləri təşkil edir. 2018-2024-cü illərdə KOB-ların yaratdığı əlavə dəyərin həcmi 2 dəfədən çox artaraq 9,8 milyard manatdan 21,1 milyard manata çatıb. KOB-ların əlavə dəyərdə payı 13,4 faizdən 18,5 faizə yüksəlib. KOB subyektləri üzrə işçilərin sayı 47,6 faiz artaraq 417 min 800 nəfəri keçib. KOB-ların dövriyyəsi 2019-2024-cü illərdə 54,5 faiz artaraq 48 milyard manat olub ki, bu da ölkə üzrə qeyri-neft dövriyyəsinin 37,4 faizini təşkil edir.

Qarşıdakı illərdə KOB-lara göstərilən dəstək və xidmətlərin təkmilləşdirilməsi, effektivliyinin artırılması və sahibkarlar üçün daha əlçatan olması üzrə işlər davam etdiriləcək. Eyni zamanda, biznesin ehtiyacına uyğun yeni dəstək mexanizmlərinin tətbiqi, KOB-ların rəqəmsallaşdırılması və yaşıl keçidinə dəstək, dayanıqlı biznes modellərin təşviqi KOBİA-nın fəaliyyətinin prioritetləri sırasında olacaq.

*Yeganə*

# Manatın məzənnəsi möhkəmlənib

2025-ci il dekabrın 1-nə olan dövrdə Azərbaycan manatının xarici valyutalara nisbətən nominal effektiv məzənnəsi 103,4 bənd təşkil edib. Mərkəzi Bankın (MB) məlumatına görə, bu, aylıq müqayisədə 0,5 bənd çox, ilin əvvəlinə nisbətən 5,8 bənd, ötən ilin dekabrın 1-i ilə müqayisədə 4,1 bənd azdır. Qeyd edilən dövrdə manatın real effektiv məzənnəsi 116,3 bənd təşkil edib. Bu isə noyabrın 1-nə olan göstərici ilə müqayisədə 0,9 bənd çox, ilin əvvəlinə nisbətən 8,8 bənd, ötən il dekabrın 1-i ilə müqayisədə isə 6,3 bənd azdır. Azərbaycandakı inflyasiyanın tərəfdaş ölkələrdəki orta inflyasiyadan əhəmiyyətli aşağı olması da real effektiv məzənnəyə azaldıcı təsir göstərib. Nominal məzənnənin möhkəmlənməsi inflyasiya idxalını məhdudlaşdıran başlıca amillərdən biri kimi çıxış edib.




### Milli valyutamız 2026-2029-cu illərdə mövcud kursu qoruyacaq

Manatın nominal məzənnəsinin möhkəmlənməsi beynəlxalq maliyyə instutlarının hesabatlarında da yer alıb. Dünyanın nüfuzlu iqtisadi institutlarından olan “Fitch Group”a aid “Fitch Solutions” şirkəti Azərbaycanla bağlı açıqladığı yeni hesabatında pul-kredit, monetar və maliyyə sabitliyinin vəziyyəti və proqnozlarını şərh edib. Qurumun ekspertlərinin qənaətinə görə, Azərbaycan manatının ABŞ dollarına qarşı məzənnəsinin 2026-cı ildə 1,7 bənd səviyyəsində qalacaq və yaxın dövrdə məzənnə dəhlizində ciddi dəyişikliklər gözlənilmir. Güclü xarici şoklar baş vermədiyi halda manatın məzənnəsinin kəskin dəyişikliyinə səbəb olacaq amillər üçün əsaslar yoxdur. Proqnoza əsasən, Mərkəzi Bank (MB) inflyasiya təzyiqlərinin yüksək olmasına baxmayaraq, ümumilikdə, qiymət sabitliyini təmin etməklə ehtiyatlı siyasət yürüdür. Bu isə məzənnə sabitliyini dəstəkləyən əsas amillərdən biri kimi mühüm yer tutur.

“Fitch Solutions”un qənaətinə görə, manatın dollara qarşı sabit qalması ölkədə investorların etimadını gücləndirir və uzunmüddətli iqtisadi planlaşdırmanı asanlaşdırır. Eyni zamanda, avronun nisbətən ucuzlaşması ölkənin Avropa ilə ticarətində qiymət rəqabətliliyini artırmaq üçün əlverişli şərait yarada bilər.

“The Economist Group”un araşdırma və təhlil bölməsi olan “Economist Intelligence Unit”un (EIU) ehtimallarına əsasən, manatın xarici valyutalar qarşısında kursu sabit qalmaqdadır və bu proses növbəti illərdə də davam edəcək. Dollar/AZN məzənnəsi 2026-2029-cu illər ərzində 1,70 səviyyəsində stabilliyini qoruyacaq. Bu, Mərkəzi Bankın manatın sabitliyini təmin etmək siyasəti ilə uzlaşır və ölkədə maliyyə sabitliyi üçün mühüm göstərici hesab olunur. Analitiklər bildirirlər ki, manatın dollara nisbətdə sabit qalması həm inflyasiya risklərinin idarə edilməsinə, həm də ölkəyə sərmayələrin cəlb olunmasına müsbət təsir göstərəcək.

### Sabit məzənnə inflyasiya göstəricilərinə müsbət təsir göstərir

Mütəxəssislər qeyd edirlər ki, manatın dollara qarşı sabit qalması ölkədə investorların etimadını gücləndirir və uzunmüddətli iqtisadi planlaşdırmanı asanlaşdırır. Eyni zamanda, avronun nisbətən ucuzlaşması ölkənin Avropa ilə ticarətində qiymət rəqabətliliyini artırmaq üçün əlverişli şərait yarada bilər.

Makroiqtisadi perspektivlərə nəzər salsaq, manatın sabit qalması inflyasiya göstəricilərinə də müsbət təsir göstərəcək. Əgər valyutanın məzənnəsi kəskin dəyişməsə, idxal olunan məhsulların qiymətində ciddi artım müşahidə olunmayacaq və nəticədə istehlak bazarında sabitlik qorunacaq. Bu, həm də əhalinin alıcılıq qabiliyyətinin qorunmasına xidmət edəcək. Analitiklərin qənaətinə görə, manatın kursunda ciddi dalğalanmalar gözlənilmir və 2030-cu ilə qədər milli valyutanın sabitliyi qorunacaq.

*E.CƏFƏRLİ*

# “S&P Ratings”dən nikbin qiymətləndirmə

## Agentlik Azərbaycanın kredit reytinqinin yaxşılaşacağına dair açıqlama ilə çıxış edib

Dünyanın iqtisadi institutlarından biri olan “S&P Global Ratings” (S&P) reytinq agentliyi ortamüddətli dövrdə Azərbaycanın kredit reytinqinin yaxşılaşacağına dair açıqlama ilə çıxış edib. Agentlik hesab edir ki, geosiyasi risklərin azalması və fiskal dayanıqlılığın artması fonunda Azərbaycanda kredit və investisiya cəlbediciliyi imkanları artıb, eləcə də suveren yığımların aktivliyi müşahidə edilir. Bu imkanlar daha çox Dövlət Neft Fondu (DNF) tərəfindən idarə olunan iri həcmli aktivlərdə özünü göstərir. Dövlətin xalis aktivlərə malik olması və fiskal mövqeyi, habelə aşağı dövlət borcunun qorunub saxlanması Azərbaycan iqtisadiyyatının şoklara davamlılığını artırır, qlobal bazarlarda karbohidrogen qiymətlərinin dəyişkənliyinin təsirlərini yumşaldaraq makroiqtisadi sabitliyi möhkəmləndirir.

“S&P”nin ekspertlərinin qənaətinə görə, geosiyasi risklərin azalması və fiskal buferlərin möhkəmlənməsi şəraitində Azərbaycanın kredit reytinqinin yüksəlməsi gözləniləndir. Buna iqtisadi-maliyyə-investisiya seqmentlərindəki amillərlə yanaşı, bölgədə yaranan siyasi faktorların- sülh və rifah quruculuğu yönündə atılan iradəli addımların da təsirləri istisna deyil. Agentlik hesab edir ki, Azərbaycan və Ermənistan arasında rəsmi sülh müqaviləsinin reallaşması istiqamətində səylərin gücləndirilməsi ikitərəfli münasibətlərdə onilliklər ərzində ən konstruktiv mərhələnin formalaşdığını göstərir. Bu isə bölgədə əlverişli və geniş investisiya mühitinin yaxşılaşmasına səbəb olacaq, iqtisadi artım potensialını yüksəldəcək. Bu və digər amillər Azərbaycanın kredit reytiqinin yüksəlməsi üçün də münbit potensialı artıracaq.

### Qlobal investorlar üçün əlverişli ölkə

Qeyd edək ki, Azərbaycan beynəlxalq kapital bazarlarına çıxışın asanlaşdırılması, borclanma prosedurlarının tənzimlənməsi, beynəlxalq maliyyə dairələri tərəfindən ölkəmizə etimadın daha da gücləndirilməsi məqsədilə 2000-ci ildən etibarən beynəlxalq kredit reytinq agentlikləri ilə əməkdaşlıq edir. Bu dövr ərzində aparıcı üç beynəlxalq reytinq agentliyi - “Fitch”, “S&P Global Ratings” və “Moody’s”la əməkdaşlıq həyata keçirilib, rəsmi müqavilə çərçivəsində ödənişli əsaslarla, eyni zamanda, müqavilə öhdəlikləri olmadan agentliklər tərəfindən ölkəmizin suveren kredit reytinqi qiymətləndirilib. 2024-cü ildə “Fitch Ratings”, 2025-ci ildə isə “Moody’s Ratings” agentliyi tərəfindən ölkəmizin suveren kredit reytinqi artırılaraq investisiya dərəcəsinə yüksəldilib. Həmin agentliklər tərəfindən “BBB-” və “Baa3” səviyyəsinə qaldırılan suveren reytinqimiz üzrə növbəti dövr üçün proqnoz da müvafiq olaraq “stabil” və “müsbət” olaraq qiymətləndirilib. Eləcə də “S&P Global Ratings” agentliyi Azərbaycan üzrə reytinq əmsalını “BB+/B” şkalasında təsdiqləyib, eyni zamanda, “sabit”dən “müsbət”ə dəyişib. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan inkişaf etmiş ölkə kimi dünyanın aparıcı investorlarının daim diqqət mərkəzindədir.

“S&P”, eyni zamanda, cari ildə Azərbaycanın bank sektorunun risk qiymətləndirməsini yaxşılaşdırıb. Sahə riskinin qiymətləndirməsini “sabit”dən “müsbət”ə dəyişib. “S&P” analitiklərinin fikrincə, bu müsbət tendensiya ölkədə son iki ildə 2024-2026-cı illər üçün Maliyyə Sektorunun İnkişafı Strategiyası çərçivəsində maliyyə institutlarına nəzarət və tənzimləmənin yaxşılaşdırılması təşəbbüslərini əks etdirir. Bu təşəbbüslər effektiv şəkildə həyata keçirildiyi təqdirdə Azərbaycanda banklara nəzarət və tənzimləmənin daha da gücləndirilməsinə imkan verəcək.




### Agentlik investisiya reytinqimizi artıra bilər

“S&P Global Ratings” agentliyinin yeni proqnozları ona dəlalət edir ki, Azərbaycanın güclü milli valyuta ehtiyatları və suveren fondları milli valyutanın sabitliyi üçün də dayanıqlılığı təmin edir. Yəni, mövcud ehtiyat portfeli manatın xarici valyuta qarşısında məzənnəsinə ciddi təsir və təzyiq edəcək amilləri tamamilə neytrallaşdırır. Reytinqdə əsas faktorlardan biri kimi xarici borc amili də mühüm yer tutur. Azərbaycan hazırda regionda xarici borcun ÜDM-də nisbətinə görə, ən yaxşı ölkələr qrupundadır.

Agentliyin Azərbaycanın kredit reytinqi ilə bağlı nikbin proqnozu investisiya və maliyyə sektorları üçün də ümidverici ssenarilərə zəmin yaradır. Respublikamızın potensial investor və dünyada sərmayəçi ölkə kimi imicinin möhkəmlənməsinə də beynəlxalq inamı artırır. Eyni zamanda, “S&P”in yaxın müddətdə Azərbaycanın kredit reytinqinin yenidən yüksəldəcəyinə və investisiya səviyyəsinə yüksəldəcəyinə zəmin yaradır.

***E.CƏFƏRLİ***

# Sülh müqaviləsinin 90 faizi razılaşdırıldı

## Ukrayna Rusiya müharibəsi başa çatır?

Dekabrın 28-də Ukrayna Prezidenti Volodimir Zelenski ilə ABŞ Prezidenti Donald Tramp arasında 4-cü görüş keçirilib. Florida ştatında yerləşən Mar-a-Laqo iqamətgahında baş tutan görüşdə ABŞ tərəfdən nümayəndə heyətinə Ağ ev sahibinin nümayəndələri Cared Kuşner və Stiv Vitkoff, Ağ Evin aparat rəhbəri Syuzan Uayls və onun müavini Stiven Miller, dövlət katibi Marko Rubio, Pentaqonun başçısı Pit Heqset, Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Den Keyn və Federal Təchizat Xidmətinin komissarı Coş Qruenbaum daxil olub. Ukrayna nümayəndə heyətində isə Prezident Zelenski ilə yanaşı Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov, Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Andrey Qnatov, iqtisadiyyat naziri Andrey Sobolev, xarici İşlər nazirinin birinci müavini Sergey Kıslıtsya və prezident aparatının müşaviri Oleksandr Bevz təmsil olunub.

**Prezidentlər 4-cü dəfə görüşdü**

### Tramp Putinlə danışdı

Qeyd edək ki, görüşdən əvvəl Donald Tramp ilə Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub. Putinin köməkçisi Yuri Uşakov bildirib ki, 1 saat 15 dəqiqə davam edən telefon danışığı Prezident Donald Trampın təşəbbüsü ilə təşkil olunub. Danışıq zamanı Tramp Rusiya tərəfinin mövqeyini diqqətlə dinləyib və münaqişənin nizamlanması ilə bağlı Moskvanın arqumentləri ilə yaxından tanış olub. “Donald Tramp Rusiya prezidentinin real razılaşma perspektivləri ilə bağlı qiymətləndirmələrini, Ankoric sammiti zamanı və iki administrasiya nümayəndələri arasında çoxsaylı təmaslar çərçivəsində əldə olunmuş əsas Rusiya-Amerika anlaşmalarına bundan sonra da istinad etməyin prinsipial əhəmiyyəti barədə ətraflı arqumentlərini diqqətlə dinlədi”, - deyə Uşakov bildirib.

Uşakovun sözlərinə görə, hər iki lider Ukrayna və Avropa tərəfindən təklif olunan, “referendum bəhanəsi” ilə irəli sürülən atəşkəs planının müharibənin uzanmasına xidmət etdiyi mövqeyində həmfikirdir.

Danışıq zamanı Donald Tramp münaqişənin mümkün qədər tez başa çatdırılmasının vacibliyini xüsusi vurğulayıb. O, müharibənin dayandırılacağı təqdirdə ABŞ-ın həm Rusiya, həm də Ukrayna ilə geniş iqtisadi əməkdaşlıq imkanlarının açılacağını bildirib. “Donald Tramp israrla qeyd edib ki, müharibəni mümkün qədər tez bitirmək lazımdır. O, bu halda ABŞ üçün həm Rusiya, həm də Ukrayna ilə təsirli iqtisadi əməkdaşlıq perspektivlərinin yarandığını bildirib”, - deyə Uşakov vurğulayıb.

Telefon danışığının əsas nəticələrindən biri kimi Ukrayna üzrə iki işçi qrupunun yaradılması barədə razılıq əldə olunub. Birinci işçi qrupu təhlükəsizlik məsələləri, ikinci isə iqtisadi problemlər üzərində çalışacaq. Uşakovun sözlərinə görə, bu təşəbbüs Tramp tərəfindən irəli sürülüb və Putin tərəfindən dəstəklənib.



### Zelenski Starmerlə müzakirə etdi...

Görüşdən əvvəl Ukrayna Prezidenti Zelenski isə Böyük Britaniyanın Baş naziri Kir Starmerlə telefon danışığı aparıb. Zelenski bu barədə X sosial media hesabında məlumat verib. Zelenski qeyd edib ki, Prezident Trampla görüşə hazırlıqları, eləcə də avropalı tərəfdaşları ilə aparılan müzakirələrlə bağlı fikir mübadiləsi aparıblar. O, həmçinin Böyük Britaniyanın Baş nazirinə cəbhə xəttindəki vəziyyət və Rusiya tərəfinin həyata keçirdiyi zərbələrin nəticələri barədə məlumat verib.

### Əsas mövzu Donbasdır...

Mar-a-Laqo danışıqlarından öncə keçirilən mətbuat konfransında Tramp həm Putinin, həm də Zelenskinin Ukraynada sülh istədiyinə inandığını qeyd edib. Onun sözlərinə görə, Ukrayna ilə bağlı razılaşmanın konturları artıq hazırdır. Tramp həmçinin Moskvanın Ukraynada sülhə ciddi yanaşdığını bildirib və əsas kimi Kiyevin Rusiyaya qarşı hücumlarına işarə edib.

ABŞ prezidentinin sözlərinə görə, Ukraynadakı münaqişə “çox tez” başa çata bilər. Tramp inandığını bildirib ki, münaqişə həll edildikdən sonra Avropa ölkələri Ukraynada sülhün qorunmasında əhəmiyyətli dərəcədə iştirak edəcəklər. Eyni zamanda, sülh razılaşması Kiyevə əhəmiyyətli iqtisadi fayda gətirəcək: “Ukrayna ilə bağlı razılaşma üçün son tarix yoxdur, amma bu, “güclü razılaşma” olacaq. Biz danışıqların son mərhələsindəyik. Müharibə ya bitəcək, ya da uzun müddət uzanacaq, amma heç kim milyonlarla insanın ölməsini istəmir”.

Volodimir Zelenski isə qısaca olaraq görüşdə Ukraynanın ərazi güzəştləri məsələsinin əsas müzakirə mövzusu olacağını deyib.

### Məsuliyyət Avropanın üzərinə düşəcək...

Qapalı görüşdən sonra da mikrafon qarşısına keçən dövlət başçıları Ukraynada hərbi əməliyyatlara son qoymaq üçün mümkün razılaşma ilə bağlı mövqelərində əhəmiyyətli dərəcədə yaxınlaşmanın olduğunu elan ediblər. Onlar Donbasın statusu və gələcək taleyi ilə bağlı məsələnin açıq qaldığını deyiblər. Donald Tramp etiraf edib ki, bu məsələ həll olunmayıb: “Amma biz onun həllinə yaxınlaşırıq və bu çox mürəkkəb bir mövzudur. Mümkün həll modelləri müzakirə olunur. “Razılaşdırılmış” sözü çox qəti olar. Deyərdim ki, razılaşmamışıq, amma razılığa yaxınlaşırıq.”

Tramp qeyd edib ki, bir neçə həftə ərzində baş tutacaq davamlı danışıqlar konkret razılaşmalara hədəflənəcək. Bununla belə, Tramp danışıqları “əla” adlandırıb: “Müzakirə demək olar ki, bütün mövzuları əhatə edib, lakin əsasən ərazilərlə bağlı bir və ya iki çox mürəkkəb, ağrılı məsələ qalmaqdadır”.

Zelenski də görüşü müsbət qiymətləndirib və sülh planının 90 faiz razılaşdırıldığını bildirib. Ukrayna ilə ABŞ arasında təhlükəsizlik zəmanətləri və Avropanın iştirakı ilə üçtərəfli format isə demək olar ki, tam razılaşdırılmış haldadır.

Danışıqlar zamanı təhlükəsizlik zəmanətlərinə xüsusi diqqət yetirilib - bununla bağlı Tramp bildirib ki, prosesin həyata keçirilməsi üçün əsas məsuliyyət Avropanın üzərinə düşməlidir və ABŞ buna tam dəstək verəcək. O deyib ki, yekun qərarlar ya referendum yolu ilə, ya da parlament vasitəsilə verilməlidir. Zelenski sülh planının müəyyən müddəalarının ümumxalq səsverməsinə təqdim edilməsinə razı olduğunu xatırladıb.



### Görüşdən sonra videokonfrans...

Qeyd edək ki, danışıqlar prosesi Avropada da diqqətlə izlənir. Fransa Prezidenti Emmanuel Makron X sosial media platformasında bildirib ki, “Könüllülər Koalisiyası” yanvarın əvvəlində hər bir ölkənin Ukraynanın təhlükəsizlik zəmanətlərinə verdiyi konkret töhfəni yekunlaşdırmaq üçün Parisdə görüşəcək. O, “ədalətli və davamlı sülhün qurulmasında əsas rol oynayacaq təhlükəsizlik zəmanətləri məsələsində irəliləyiş əldə edirik” deyə bildirib.

Yeri gəlmişkən, Mar-a-Laqodakı görüşdən sonra Zelenski və Tramp Avropa liderləri ilə videokonfrans keçiriblər. Bununla bağlı açıqlama verən Finlandiya prezidenti Aleksandr Stubb bildirib ki, görüşə Fransa prezidenti Emmanuel Makron, Polşa prezident Karol Navrotski, Birləşmiş Krallığın baş naziri Kir Starmer, İtaliyanın baş naziri Corcio Meloni, Norveçin baş naziri Yonas Qar Störe, Almaniya kansleri Fridrix Merts, NATO baş katibi Mark Rutte və Avropa Komissiyasının prezidenti Ursula Fon der Leyen qatılıb. Stubb sosial mediada yazıb: “Müzakirə bir saatdan çox davam edib. Müharibəyə son qoymaq üçün konkret addımlar müzakirə olunub. Hamımız ədalətli və davamlı sülh üçün çalışırıq”.

Müzakirələrdə ABŞ prezidentinin sülh prosesinə sadiqliyi və uğurlu vasitəçiliyi vurğulanıb. Avropalı təmsilçilər əldə edilən irəliləyişi alqışlayıblar. Zelenski ilə Tramp arasında görüşün nəticələri nikbin adlandırılıb.

***P.İSMAYILOV***

# NATO və Rusiya faktoru: Avropa təhlükəsizliyində yeni mərhələ

Ukrayna müharibəsi hələ davam etdiyi halda Qərbdə getdikcə daha açıq səslənən bir fikir var: bu münaqişə bitəndən sonra dünya əvvəlki kimi olmayacaq. Amma ən ciddi dəyişiklik nə Ukraynanın taleyi, nə də Rusiyanın mövqeyi ilə bağlıdır. Ən böyük zərbə Avropanın təhlükəsizlik sisteminə və onun əsas dayağı sayılan NATO-ya dəyir. ABŞ-ın yeni milli təhlükəsizlik strategiyası bu zərbəni artıq gizlətmir, əksinə, onu siyasi xəttə çevirir.

Sənəddə ilk dəfə olaraq Rusiya açıq şəkildə əsas düşmən kimi təqdim edilmir. Bu, texniki detal deyil, konseptual dönüşdür. Onilliklər boyu NATO-nun mövcudluğunu əsaslandıran "Rusiya təhlükəsi" anlayışı faktiki olaraq yumşaldılır. Əvəzində "strateji sabit münasibətlər", "faydalı tərəfdaşlıq" və "qarşılıqlı maraqlar" kimi ifadələr ortaya çıxır. Bu, Vaşinqtonun Rusiya ilə sonsuz qarşıdurmadan bezdiyini və Avropanın bu qarşıdurmada əsas yük daşıyıcısı olmaq istəmədiyini göstərir.

## İdeoloji konstruksiya, yoxsa hərbi alyans?

Bu yanaşma NATO üçün ölüm hökmünə bərabərdir, çünki NATO yalnız hərbi alyans deyil, ideoloji konstruksiyadır. Onun varlıq səbəbi konkret düşmən obrazı üzərində qurulub. Əgər Rusiya artıq əsas təhlükə deyilsə, alyansın mənası da itir. ABŞ üçün NATO getdikcə daha çox yükə çevrilir, Avropa üçünsə süni nəfəs aparatına.

Əsl problem ondadır ki, Avropa özü Rusiyaya alternativ təhlükəsizlik modeli yarada bilmədi. Bütün strategiya Vaşinqtonun liderliyinə bağlandı. İndi isə ABŞ açıq şəkildə bildirir: Avropa ilə Rusiya arasında münasibətləri normallaşdırmaq Vaşinqtonun marağındadır, amma bu proses Avropanın istəklərindən asılı olmayacaq. Yəni Avropa ya bu reallıqla barışacaq, ya da prosesdən kənarda qalacaq.

Paradoksal vəziyyət yaranır: bir tərəfdən Avropa illər boyu Rusiya ilə münasibətləri kəsib, sanksiyalar tətbiq edib, enerji asılılığını "təhlükə" elan edib, digər tərəfdən ABŞ indi deyir ki, müharibədən sonra Avropanın Rusiya ilə əməkdaşlığı qaçılmazdır. Bu isə Avropa elitalarının illərlə apardığı siyasətin iflası deməkdir. Çünki nəticədə ortaya çıxan sual çox sadədir: əgər barışıq qaçılmaz idisə, bu müharibə nəyin naminə aparılırdı?

ABŞ-ın yeni yanaşması NATO-nun genişlənməsini də faktiki olaraq gündəmdən çıxarır. Bu, Ukrayna məsələsinin pərdəarxası etirafıdır. Genişlənmənin dayanması Rusiyanın əsas strateji tələblərindən biri idi, indi həmin tələb rəsmi sənəddə dolayı yolla qəbul olunur. Bu isə onu göstərir ki, Vaşinqton artıq Avropanın şərq cinahını risk zonası kimi saxlamaq istəmir. ABŞ üçün əsas prioritet başqa yerdədir - Çinlə rəqabətdə.

Bu nöqtədə NATO-nun Avropa üçün nə qədər perspektivsiz olduğu üzə çıxır. Alyans ABŞ olmadan mövcudluğunu qoruya bilməz. ABŞ isə Avropa üçün döyüşmək niyyətində deyil. Bu reallıq Avropanı təhlükəsizlik vakuumu ilə üz-üzə qoyur, amma Avropa bu vakuumu doldurmaq iqtidarında deyil. Nə vahid ordu var, nə vahid komandanlıq, nə də real siyasi iradə.



## Avropa parçalana bilərmi?

Rusiya ilə münasibətlərin yenidən formatlanması da məhz bu boşluqdan qaynaqlanır. ABŞ üçün Rusiya Avropada sabitlik elementi ola bilər, xüsusilə də Çinlə strateji balans baxımından. Avropa üçün isə Rusiya təhlükə obrazından sabit tərəfdaşa çevrilərsə, son onilliklərin ideoloji xətti çökmüş olacaq. Bu səbəbdən Brüssel və bəzi Avropa paytaxtları bu dönüşə psixoloji olaraq hazır deyil.

Lakin beynəlxalq siyasət psixologiya ilə deyil, güc balansı ilə işləyir. Əgər ABŞ və Rusiya arasında strateji razılaşma formalaşarsa, Avropanın buna qarşı çıxmaq imkanı yoxdur. Tarix göstərib ki, Avropa böyük güclər arasında razılaşmaların obyektinə çevrildiyi anlarda daxildən parçalanır. Bu dəfə də fərqli vəziyyət yaranmayacaq.

Beləliklə, NATO-nun perspektivsizliyi təkcə hərbi məsələ deyil, siyasi və ideoloji böhrandır. Alyansın gələcəyi sual altındadır, çünki əsas sponsoru onun yaşamasında artıq maraqlı deyil. Rusiya ilə barışıq isə Avropa üçün seçimə yox, məcburiyyətə çevrilir. Bu məcburiyyət qəbul olunmasa, Avropa təhlükəsizlik baxımından tamamilə kənarda qalacaq.

Nəticədə ortaya belə bir acı həqiqət çıxa bilər: Ukrayna müharibəsi Avropanı gücləndirmədi, əksinə, onu strateji baxımdan daha da zəiflətdi. NATO isə bu zəifliyin simvoluna çevrildi - rəsmən elan olunmamış, amma artıq başlanmış səssiz-küysüz bir sonun simvoluna.

# Monro doktrinasına qayıdış: dünya yenidən bölünür

Beynəlxalq münasibətlər tarixinə nəzər yetirəndə elə anlayışlarla rastlaşırıq ki, onlar bəlli dövrlərdə köhnəlmiş, hətta iflasa uğramış ideyalar kimi qələmə verilir, lakin qlobal güc balansı dəyişdikcə həmin anlayışlar yeni terminologiya və yeni siyasi pərdələr altında yenidən səhnəyə qayıdır. "Təsir dairələri" anlayışı məhz bu qəbildəndir. Bir vaxtlar beynəlxalq siyasətin əsas təşkilatlandırıcı prinsipi olmuş bu konsepsiya XX əsrin ikinci yarısından etibarən rəsmi diskursdan sıxışdırılıb çıxarılmış, normativ baxımdan arzuolunmaz və təhlükəli sayılmışdır.

İkinci Dünya müharibəsindən sonra formalaşan beynəlxalq hüquq sistemi, xüsusilə də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi dövlətlərin suveren bərabərliyini, ərazi bütövlüyünü və daxili işlərə qarışmamaq prinsipini əsas norma kimi təsbit edirdi. Bu çərçivədə "təsir dairələri" anlayışı imperialist keçmişin qalığı, güclü dövlətlərin zəiflər üzərində hegemonluğunu legitimləşdirən mexanizm kimi qiymətləndirilirdi. Daha sonrakı mərhələdə, xüsusilə soyuq müharibənin başa çatmasından sonra liberal dünya nizamı ideyası bu yanaşmanı daha da möhkəmləndirdi. Universal qaydalar, beynəlxalq institutlar, çoxtərəflilik və hüquqa əsaslanan dünya modeli "təsir dairələri"ni arxaik və qəbuledilməz anlayış kimi təqdim edirdi.

Lakin beynəlxalq münasibətlər yalnız normativ sənədlərlə deyil, real güc münasibətləri ilə formalaşır. Zaman keçdikcə məlum oldu ki, liberal dünya nizamı da bərabər hüquqlar üzərində deyil, güc iyerarxiyası üzərində qurulub. Böyük dövlətlər üçün qaydalar çox vaxt şərti xarakter daşıyır, onların pozulması isə "istisna hallar", "təhlükəsizlik maraqları" və ya "xüsusi məsuliyyət" kimi anlayışlarla əsaslandırılır. Məhz bu məqamda "təsir dairələri" anlayışı rəsmi leksikondan çıxarılsa da, faktiki siyasətdə yaşamağa davam edir.

Bu gün isə vəziyyət keyfiyyətcə fərqli mərhələyə keçib. Qlobal güc balansının dəyişməsi, ABŞ-ın nisbi zəifləməsi, Çinin sürətli yüksəlişi və Rusiyanın öz maraq zonalarını daha sərt şəkildə müdafiə etməsi fonunda "təsir dairələri" anlayışı artıq gizli praktikadan açıq siyasi məntiqə çevrilməkdədir. Böyük güclər universal qaydaların hamı üçün işləmədiyini faktiki etiraf edir, regional prioritetləri ön plana çəkirlər. Bu, beynəlxalq münasibətlərdə prinsipə əsaslanan yanaşmadan marağa əsaslanan yanaşmaya keçidin göstəricisidir.

ABŞ-ın yeni milli təhlükəsizlik strategiyası bu dönüşün bariz nümunəsidir. Sənəddə "təsir dairələri" termini birbaşa işlədilmir, lakin məzmun etibarilə bu məntiq açıq şəkildə hiss olunur. Qərb yarımkürəsinə xüsusi diqqət, geosiyasətdə coğrafiyanın yenidən önə çıxarılması, regional təhlükəsizlik perimetrlərinin vurğulanması onu göstərir ki, Vaşinqton dünyanı artıq vahid qaydalarla idarə olunan sistem kimi deyil, fərqli maraq zonalarına bölünmüş məkan kimi qəbul edir. Bu, Monro doktrinasının müasir şəraitə uyğunlaşdırılmış versiyası təsiri bağışlayır.



Beləliklə, "təsir dairələri" anlayışının geri qayıdışı təsadüfi deyil. Bu, liberal dünya nizamının struktur böhranının və böyük güclər arasında rəqabətin açıq fazaya keçməsinin nəticəsidir. Artıq beynəlxalq münasibətlərdə əsas sual qaydaların nə olduğu deyil, bu qaydaları kimin və harada tətbiq edə bildiyidir. Dünya yenidən güc mərkəzləri ətrafında formalaşır və bu proses bütün riskləri ilə birlikdə beynəlxalq siyasətin yeni reallığına çevrilir.

Prosesin kökləri XIX əsrin əvvəllərinə gedib çıxır. 1823-cü ildə ABŞ prezidenti Ceyms Monro Konqresə müraciətində sonradan "Monro doktrinası" adlandırılacaq prinsipləri irəli sürdü. Formal məntiq sadə idi: Avropa dövlətləri Qərb yarımkürəsinə müdaxilə etməməli, ABŞ isə Avropanın işlərinə qarışmamalıydı. Lakin bu doktrina idealist bərabərlik prinsipi deyil, açıq geosiyasi iddia idi. ABŞ faktiki olaraq Latın Amerikasını özünün müstəsna maraq zonası elan edirdi.

Zamanla bu doktrina daha da sərtləşdi. XX əsrin əvvəllərində Teodor Ruzveltin məşhur "əlavəsi" ilə ABŞ özünü Qərb yarımkürəsinin "beynəlxalq polisi" elan etdi. Bu isə birbaşa müdaxilə hüququnun legitimləşdirilməsi demək idi. Çili, Qvatemala, Nikaraqua və digər ölkələrdə baş verən hadisələr Monro doktrinasının real mahiyyətini açıq göstərdi: suverenlik yalnız gücünün icazə verdiyi həddə mövcud idi.

Eyni dövrdə Avropa da dünyanı təsir dairələrinə bölürdü. 1884-1885-ci illərdə keçirilmiş Berlin konfransı Afrika qitəsinin faktiki olaraq xəritə üzərində bölüşdürülməsinin hüquqi əsasını yaratdı. "Təsir dairəsi" anlayışı ilk dəfə rəsmi sənədlərdə məhz burada təsbit olundu. Dövlətlər bir-birinə xəbər verməklə xalqların taleyini masa arxasında həll edirdilər. Suverenlik anlayışı yalnız Avropa paytaxtları üçün keçərli idi.

İkinci Dünya müharibəsindən sonra bu model formal olaraq rədd edildi. BMT Nizamnaməsi suveren bərabərlik prinsipini təsbit etdi və təsir dairələri anlayışı hüquqi baxımdan "qadağan olunmuş" kateqoriyaya keçdi. Lakin reallıqda dünya yenə də bölünmüşdü. Soyuq müharibə dövründə ABŞ və SSRİ bu bölgünü ideoloji pərdələrlə örtürdü. Varşava Müqaviləsi və NATO faktiki olaraq iki böyük təsir zonasının hərbi ifadəsi idi.

Soyuq müharibənin bitməsiylə "təsir dairələri" anlayışının tarixin zibilliyinə atıldığı elan edildi. 1990-cı illərin liberal qloballizmi universal qaydalar, açıq bazarlar və sərhədsiz təhlükəsizlik vəd edirdi. Amma bu vədlər uzunömürlü olmadı. NATO-nun genişlənməsi, regional müharibələr, iqtisadi asılılıqlar göstərdi ki, "təsir dairələri" sadəcə adını dəyişib.

İndiki mərhələdə bu anlayış artıq yenidən açıq şəkildə səslənir. ABŞ Qərb yarımkürəsinə xüsusi diqqət ayırdığını bildirir, Çinin Latın Amerikası və Karib hövzəsində artan təsirindən narahatlığını gizlətmir. Çin Asiya-Sakit okean regionunda özünə təhlükəsizlik perimetri qurur. Rusiya isə postsovet məkanında NATO-nun genişlənməsini birbaşa təhlükə kimi qəbul edir. Hər üç halda məntiq eynidir: yaxın coğrafiya həyati maraq zonasıdır.

Odur ki, Ukrayna böhranı təsir dairələri mübahisəsinin konkret toqquşma nöqtəsinə çevrildi. Burada məsələ yalnız Ukraynanın özü yox, ABŞ-ın təsir zonasının Rusiyanın sərhədlərinə qədər genişlənməsi idi. Moskva bunu qəbul etmədi və nəticə silahlı qarşıdurma oldu. ABŞ-ın yeni strategiyası isə dolayısıyla etiraf edir ki, bu qarşıdurma uzun sürə bilməz və müəyyən geosiyasi balans bərpa olunmalıdır.

Ən maraqlısı budur ki, Avropa bu tarixi dönüşdə yenə də passiv tərəf kimi qalır. ABŞ və Rusiya arasında mümkün razılaşmalar Avropanın iştirakı olmadan müzakirə olunur. Avropa təsir dairələrinin subyekti yox, obyekti kimi görünür. Bu, XX əsrin əvvəllərini xatırladan təhlükəli paraleldir. Beləliklə, XXI əsrin geosiyasəti bizi köhnə anlayışlarla üz-üzə qoyur. Təsir dairələri, böyük güclərin razılaşmaları, regional nəzarət zonaları yenidən gündəmdədir. Fərq yalnız ondadır ki, bu dəfə ideoloji pərdələr daha nazikdir və güc faktoru daha açıq oynanır. Nəticə etibarilə dünya "dəyər, prinsiplər əsrindən" bir daha "güc, maraqlar əsrinə" qayıdır. Monro doktrinası tarix kitablarından boy göstərərək yeni formada geri dönür. Universal qaydalar yerini regional razılaşmalara verir. Bu prosesin qalibləri böyük güclər, məğlubları isə seçim imkanı olmayan kiçik və orta dövlətlər ola bilər. Əsas sual isə hələ açıq qalır: bu yeni bölgü müharibəsiz başa çata biləcəkmi, yoxsa tarix ən sərt dərsini bəşəriyyətə bir daha təkrarlayacaq?



*Kəramət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Azərbaycan beynəlxalq idman yarışları üçün etibarlı tərəfdaşdır

Gənclər və idman naziri Fərid Qayıbovun ilin yekunları ilə bağlı jurnalistlərlə ənənəvi görüşü olub. AZƏRTAC xəbər verir ki, nazir media mənsublarını maraqlandıran sualları cavablandırıb.

**- 2025-ci ili Azərbaycan idmanı üçün necə qiymətləndirirsiniz?**

- Ümumilikdə 2025-ci il Azərbaycan idmanı üçün çox uğurlu keçdi. Medal sayında rekord göstəricilər əldə etdik. Bu rəqəmləri hesablayarkən həm Olimpiya, həm qeyri-Olimpiya növləri, həm də paralimpiyaçıların nəticələri nəzərə alınır. Ölkəmizdə bir sıra beynəlxalq yarışlar keçirildi və bu yarışların bir neçəsində "ilk dəfə" ifadəsini işlətmək mümkündür. Belə ki, Bakı ilk dəfə UFC turnirinə ev sahibliyi etdi. Bu tədbir təkcə yerli azarkeşlər üçün deyil, eyni zamanda xarici ölkələrdən gələn turist və azarkeşlər üçün də maraqlı oldu. Düşünürəm ki, ən böyük yarış MDB Oyunları idi. Bu yarışın özəlliyi ondadır ki, ilk dəfə paytaxtdan kənarda - Azərbaycanın yeddi şəhərində təşkil olundu. Bu Oyunların əsas mərkəzi Gəncə şəhəri idi. Gəncə həm də MDB-nin idman paytaxtı elan edilmişdi. Açılış və bağlanış mərasimləri də məhz Gəncədə baş tutdu. Oyunların kamandan oxatma yarışları işğaldan azad olunan ərazilərdə keçirildi. Bu, çox önəmli və tarixi addımdır. Həmçinin Yevlaxda yeni Olimpiya İdman Kompleksi istifadəyə verildi. Gəncə futbol stadionu yenidən quruldu. Şəki, Mingəçevir və Qəbələ şəhərlərində də idman turnirlərimiz oldu. Deflimpiya Oyunları tarixində ilk medalımız da bu il qazanıldı.

**- 2026-cı il üçün dünyanın idman paytaxtı seçilən Bakıda hansı yarışlar və tədbirlər keçiriləcək?**

- Azərbaycanın növbəti il üçün dünyanın idman paytaxtı seçilməsi qürurverici hadisədir. Bu qərar təsadüfi deyil. İllərdir ölkəmizdə keçirilən beynəlxalq miqyaslı yarışlar, multiidman tədbirləri bunun əsasını qoyub. İlk Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Yeniyetmələrin Yay Olimpiya Festivalı, eləcə də müxtəlif dünya və Avropa çempionatları Azərbaycanı bu sahədə ön sıralara çıxarıb. Artıq bu cür yarışların Bakıda və regionlarda keçirilməsi adi hala çevrilib. Bütün bunlar ölkəmizin idman sahəsində təşkilatçılıq potensialını və qlobal nüfuzunu artırır. Xüsusilə UFC turniri, hər il keçirilən Formula 1 yarışları buna bariz nümunədir. Son illərlə müqayisədə bu yarışların təşkili daha peşəkar səviyyəyə çatıb. Əvvəllər əhalinin narahatlığına səbəb olan logistika məsələləri bu il daha yaxşı tənzimlənib, yollar daha tez açılıb. Bir sözlə, irəliləyiş var. Bu il təkcə Formula 1 yarışları üçün 15 minə yaxın xarici azarkeşin ölkəmizə gəlməsi isə yeni rekord və mühüm göstəricidir. Bu il daha çox bilet satılıb. Bu, onu göstərir ki, bu yarışlar doğrudan da populyardır. Buna görə də beynəlxalq qurumlar Azərbaycanı yaxşı tərəfdaş kimi tanıyırlar. Beynəlxalq idman yarışları üçün namizədliyimizi irəli sürəndə artıq digər ölkələr tərəfindən ciddi rəqib kimi qəbul olunuruq. Bu da uzun illər ərzində görülən işlərin, təşkilati təcrübənin və nüfuzun nəticəsidir.

Gələn il ölkəmiz növbəti dəfə böyük idman yarışlarına ev sahibliyi edəcək. İl boyunca Bakıda müxtəlif beynəlxalq yarışlar təşkil olunacaq. İlk dəfə olaraq dünyanın ən nüfuzlu idman forumlarından biri olan "Sport Accord" 2026-cı ildə Bakıda keçiriləcək. Həmçinin cüdo, sumo üzrə və 17 yaşadək güləşçilər arasında dünya çempionatları, müxtəlif növlər üzrə Avropa çempionatları və bir çox digər turnirlər daxildir. Triatlon üzrə məşhur "Ironman" yarışları da ilk dəfə Bakıda baş tutacaq. Eyni zamanda, ölkəmizdə hər il keçirilən yarı marafon yarışları gələn il fərqli formatda təşkil ediləcək. Marafonun marşrutu bu dəfə Füzulidən də keçəcək. Əvvəlki illərlə müqayisədə həm iştirakçıların, həm də finişə çatanların sayında artım müşahidə olunur ki, bu da müsbət göstəricidir. Gəncə kimi bölgələrdə də Avropa səviyyəli turnirlər keçirilir. Məsələn, bu il aerobika üzrə Avropa çempionatı Gəncədə təşkil olundu. Növbəti illərdə də beynəlxalq turnirlərin regionlarda keçirilməsi davam etdiriləcək. Həmçinin, ənənəvi "ultra marafon" yarışları və böyük veloyürüşlər də keçiriləcək. Keçən il finiş nöqtəsi Xankəndi olub. Bu il də veloyürüşün bir mərhələsi işğaldan azad olunmuş ərazilərdən, yəni Qarabağdan keçəcək və bu yarışlar beynəlxalq kanallarda yayımlanacaq.

**- Gəncə şəhər stadionunda hazırlıq işləri hansı mərhələdədir? Stadion 2027-ci ildə Azərbaycanda keçiriləcək futbol üzrə U-20 dünya çempionatını qəbul eləməyə hazırdır?**

- Bəzi işlərimiz qalıb. Düşünürəm ki, aprel və may aylarında stadion oyunlar üçün hazır olacaq. Bunun üçün əlimizdən gələni edəcəyik. Qaçış zolağı çəkmək istəyirik. Amma bu da hava şəraitindən asılıdır. Ona görə də gözləməliyik. Yağışlı havalarda bu, çətin olur. Müasir standartlara cavab verən stadiondur. Həm azarkeşlər, həm futbolçular üçün yaxşı şərait var.

**- 2021-ci ildən etibarən gənclər və idman naziri vəzifəsində çalışırsınız. 4 illik fəaliyyətinizi necə qiymətləndirərdiniz?**

- 4 il ərzində çoxlu işlər görə bilmişik və yaxşı mənada dəyişikliklər olub. Bizim idman strategiyamız var və bunu bitirə bildik. 1 il bunun üzərində işlədik. Ölkə rəhbərliyinin tapşırıqlarına uyğun işlərimizi görürük. Əsas məqsədimiz əhali arasında idmanı həyat tərzinə çevirməkdir. Əhali arasında idmanla məşğul olanların sayında artım görə bilərsiniz. Yəqin ki, bu, göz qabağındadır. Artıq başa düşüblər ki, idman insan həyatında çox vacibdir və bu, ən əsası sağlamlığımız üçün önəmlidir. İdmançılarımıza gəlincə, ildən-ilə nəticələrimiz artır və yaxşılaşır. Düzdür, hər şey ideal deyil və ideal ola da bilməz. Məqsədlərimizə doğru addımlayırıq. Düşünürəm ki, pis alınmır. Biz bunu tək edə bilmərik. Federasiyalar və bir sıra qurumlarla birgə işləyirik. Nazirliklər tərəfindən də idmana müəyyən qədər dəstək var. Yəni, əldə edilən nailiyyətlərdə təkcə Gənclər və İdman Nazirliyinin payı yoxdur.

**- Regionlarda idmanın və sağlam həyat tərzinin daha geniş şəkildə təbliği üçün hazırda hansı layihələr həyata keçirilir və bu istiqamətdə gələcək planlar nələrdir?**

- "Səyyar Sağlam Həyat" adlı layihə çərçivəsində xüsusi təchiz olunmuş maşınlarla müxtəlif rayonlarda sağlam həyat tərzinin təbliği aparılır. Layihə kifayət qədər uğurludur və əhali tərəfindən maraqla qarşılanır. "Sağlam məhəllə" layihəsi çərçivəsində isə müxtəlif bölgələrdə mini idman meydançaları salınır. Bu meydançalarda futbol, basketbol və digər idman növləri üçün avadanlıqlar mövcuddur. Layihə Prezident İlham Əliyevin tapşırığı və dəstəyi ilə həyata keçirilir. Növbəti ildə daha çox rayonu əhatə etməsi planlaşdırılır. 3 sağlam məhəllə Naxçıvanda açılacaq. Bu layihəyə görə çoxlu təşəkkürlər alırıq. Çox uğurlu alındı. İstəyirik ki, hər bölgədə ən azı bir sağlam məhəllə olsun. Ümid edirik ki, məhəllələrin sayı növbəti illərdə daha çox olacaq. İdman federasiyaları ilə mütəmadi görüşlər keçirilir. Bu görüşlərdə federasiyaların fəaliyyətləri, qarşıda duran vəzifələr və regionlarda idmanın inkişafı müzakirə olunur. Belə görüşlər təkcə Bakıda deyil, bölgələrdə də təşkil olunur. Hər il bölgələrimiz arasından bir idman paytaxtı seçirik və tədbirlərimizi orada gerçəkləşdiririk. Naxçıvan idman paytaxtı olmamasına baxmayaraq, iclaslarımızdan biri orada baş tutdu və bu, hər bir federasiya üçün yaxşı fürsət oldu.

**- Bölgələrimizdə idman zallarının fəaliyyətindən razısınız?**

- Olimpiya İdman Kompleksləri demək olar ki, bütün regionlarımızda var. Komplekslərin bir qismi əsaslı təmir olunub, digərləri növbəti illərdə mərhələli şəkildə təmir ediləcək. Buna təbii ki, ehtiyac var. MDB Oyunları bunun üçün yaxşı fürsət oldu. Bütün Olimpiya Komplekslərimizdə hovuzlarımız işləyir. Amma qış aylarında gələnlərin sayı daha az olur. Hovuzlardan istifadə ilə bağlı maarifləndirmə aparılır. Qış aylarında istifadə səviyyəsi aşağı olsa da, yeni layihələrlə bu sahədə inkişaf nəzərdə tutulur. Üzgüçülüklə bağlı iki layihəmiz var. Peşəkarlar üçün deyil, həvəskarlar üçün nəzərdə tutulmuş "Üzgüçülük hamı üçün" layihəmiz uğurlu alındı. Burada hər kəs iştirak edə bilir. Qardaş Türkiyə də bu layihəyə qoşulub. İkinci vacib layihəni Elm və Təhsil Nazirliyinin dəstəyi ilə həyata keçiririk. Rayonlarımızda məktəbli uşaqlara 4 həftəlik proqramlar təqdim edirik və həmin uşaqlar bu müddət ərzində üzməyi öyrənirlər. Başlıca məqsədimiz üzməyi bacaranların sayını 20 faizə çatdırmaqdır.

**- Azərbaycanda idman jurnalistikasını necə dəyərləndirərdiniz?**

- Nazirlik olaraq idman jurnalistləri ilə sıx əməkdaşlıq edirik. Ölkədə bu sahənin inkişafında da nəzərəçarpacaq irəliləyişlər müşahidə olunur. İdman mediasının səviyyəsi əvvəlki illərlə müqayisədə xeyli artıb. Artıq demək olar ki, əksər nüfuzlu yarışlarda jurnalistlərimiz yerində iştirak edir, geniş işıqlandırma aparırlar. Biz də çalışırıq ki, bu sahəyə daim dəstək olaq. İlk dəfə olaraq Olimpiya Oyunlarına Azərbaycan mediasının nümayəndələri göndərilib, digər beynəlxalq yarışlara da mediaya şərait yaradılıb. Telekanallar arasında idman tədbirlərinin işıqlandırılması sahəsində sağlam rəqabət formalaşıb. Bu da ümumilikdə ölkə idmanının təbliğinə müsbət təsir göstərir. 2026-cı ildə də idman jurnalistləri üçün xarici mütəxəssislərin iştirakı ilə təlim və seminarların davam etdirilməsi nəzərdə tutulur.

**- Bu il idmançılarımızın rekord sayda medal qazandığını vurğuladınız. Sizə görə medalın əyarı önəmlidir, yoxsa sayı?**

- Bir çox idman növündə, o cümlədən üzgüçülükdə bu il ilk dəfə MDB Oyunlarında medallar qazanılıb. Gəncədə üzgüçülərimiz çoxlu medallara sahib çıxdılar. Onlardan ikisi qızıl mükafat oldu. Bu, həmin növdə indiyədək əldə olunmayan bir uğurdur. Bizim üçün əsas prioritet yalnız nəticə yox, eyni zamanda idmanın kütləviliyidir. Kütləvi idman olmadan peşəkar idmançılar da formalaşa bilməz. Misal üçün, buz meydançası artıq üçüncü ildir fəaliyyət göstərir. Xüsusilə, şənbə və bazar günləri böyük maraq var. İnsanlar orada növbəyə dayanmalı olurlar. Buz meydançası həm əhalinin asudə vaxtının səmərəli təşkili, həm də sağlam həyat tərzinin təbliği baxımından vacibdir. Əhali, xüsusən də gənclər fəal şəkildə iştirak edirlər. Burada fiqurlu konkisürmə və hokkey bölmələri fəaliyyət göstərir. Artıq 50-dən çox uşaq xokkeylə məşğuldur, yarışlarda iştirak edir və nəticələr də əldə olunur. Təbii ki, bu idman növünün inkişafı üçün gözləməliyik. Bu gün üçün yüksək nəticələr əldə etmək çətindir, amma qeyri-mümkün deyil. Məsələn, batut gimnastikası Azərbaycanda 2014-cü ildən inkişaf etdirilməyə başlayıb. İlk vaxtlar bu sahədə xarici idmançılar və məşqçilər dəvət olunmuşdu. Həmin dövrdə dəvət olunmuş idmançılar Avropa Oyunlarında medal qazandılar, amma Olimpiya lisenziyası ala bilmədilər. 10 il sonra, yəni 2024-cü ildə artıq Azərbaycanda yetişmiş batutçumuz Selcan Mahsudova Olimpiya Oyunlarına lisenziya qazandı və iştirak etdi. Bu, çox sürətli inkişafdır. Batutda cəmi 16 iştirak yeri olur, və ora düşmək olduqca çətindir. Bu səbəbdən nəticə çox dəyərlidir. Bu o deməkdir ki, yeni bir idman növünə başlamaqla belə, az vaxtda dünya səviyyəli nəticələr əldə etmək mümkündür. Lakin bu, böyük zəhmət və səbir tələb edir. Digər idman növlərində də bu cür inkişaf mümkündür. Artıq buz meydançası var. Uşaqlar məşğul olur, yerli məşqçilər yetişir və proses davam edir. Kütləvilik olmadan idmançılar da yetişmir. Bu bir zəncirvari prosesdir. Hansısa idman növünün populyarlaşması üçün orada ulduz idmançı olmalıdır. Ulduz olduqda valideynlər uşaqlarını həmin növə yönəldir. Uşaqlar nümunəvi idmançılara oxşamaq istəyirlər. Bu da idman növlərinə marağı artırır. Bu səbəbdən "idman səfirləri" layihəsi həyata keçirilir. Hər il 5 idmançı seçilir və onlar həmin idman növünün təbliğatını aparır. İdman səfirləri həm Bakıda, həm də regionlarda fəaliyyət göstərir, uşaqlara nümunə olur və onları idmana cəlb edirlər.

**- Necə düşünürsünüz, tamblinq üzrə bir sıra nüfuzlu turnirlərdə yüksək nəticələr əldə etmiş Tofiq Əliyev gələcəkdə bu idman növü üzrə dünyanın ulduz siması ola bilərmi?**

- Tofiq son illərdə xüsusilə sosial şəbəkələrdə populyarlığı ilə seçilir. O, bu yaxınlarda dünyada ilk dəfə olaraq yeni bir hərəkət nümayiş etdirib. O, əsasən Skandinaviya ölkələrində populyar olan idman növündə çıxış edir və tez-tez beynəlxalq tədbirlərə dəvət alır. Onun sosial şəbəkələrdəki aktivliyi və nüfuzu Azərbaycan idmanının təbliğatı baxımından da əhəmiyyətlidir. Ümumiyyətlə, nümunəvi idmançılar sosial mediada da fəal olmalıdırlar, çünki bu da idmanın təbliği üçün vacibdir.

**- Federasiyalar legioner idmançılar məsələsinə necə yanaşır? Ümumiyyətlə, federasiyalara legionerlərlə bağlı müraciətlər varmı?**

- Legioner idmançılar məsələsi təkcə Azərbaycanda deyil, digər ölkələrdə də geniş yayılıb. Hətta aparıcı idman ölkələrinin də olimpiya komandalarında legioner idmançılar var. Əlbəttə, məqsəd daha çox yerli idmançılar yetişdirməkdir və bəzi növlərdə artıq bu sahədə müsbət irəliləyiş var. Məsələn, batut idman növündə əvvəlcə ölkə xaricindən dəvət olunmuş idmançılar çıxış edirdi, amma hazırda yalnız yerli idmançılar var və nəticə də verirlər. Bununla belə, bəzi idman növlərində hələ də legionerlər çıxış edir. Xüsusilə komanda idman növlərində və ağır çəkilərdə bunu görə bilirik. Çünki həmin kateqoriyalarda yerli idmançı çatışmazlığı var. Bu da federasiyaların əsas narahatlıq mövzusudur. Qış idman növlərində isə son illərdə ciddi inkişaf olub. Artıq Azərbaycanda beynəlxalq yarışlar təşkil olunub və gələn il Şahdağ Avropa çempionatına, həmçinin Dünya Kubokunun final mərhələsinə ev sahibliyi edəcək. Hələlik Qış Olimpiadasında ölkəmizi yerli idmançı təmsil etməyib, çünki bu sahə yenidir və müəyyən qədər vaxta ehtiyac var. Lakin artıq bu sahə üçün də şərait yaradılıb və inkişaf gözlənilir.

**- 2026-cı ildən gözləntiləriniz nələrdir və qarşıya hansı hədəflər qoyulub?**

- Bəli, məqsədlər və planlar var. Hər bir federasiyanın öz hədəfi mövcuddur və Olimpiya Oyunları bitən kimi növbəti Olimpiya dövrü üçün hazırlıqlara başlanılır. Bu normal prosesdir və elə də olmalıdır. Artıq federasiyalarla birgə hansı sayda idmançının Olimpiya Oyunlarında iştirak edə biləcəyi ilə bağlı ilkin məlumatlar toplanıb və bu istiqamətdə işlər davam etdirilir. Gələcək iclaslarda bu məsələlər yenidən müzakirə olunacaq. Planlar müəyyən mərhələlərə bölünür. Maksimal və real hədəflər var. Yeni ulduz idmançıların ortaya çıxması istənilir və bu istiqamətdə də inam var. Məsələn, bu ay boks üzrə 19 yaşlı idmançımız Sübhan Məmmədov dünya çempionu olub. Yerli idman məktəbinin yetirməsinin sonuncu belə uğuru 10 il əvvəl əldə olunmuşdu. Ümid var ki, bu idmançı Olimpiya Oyunlarına lisenziya qazanacaq və uğurlu çıxış edəcək. Təbii ki, təkcə o yox, digər idmançılardan da gözləntilər böyükdür.

**- Beynəlxalq Olimpiya Komitəsinin tanımadığı dünya çempionatı və boksda mövcud olan iki ayrı beynəlxalq federasiya fonunda Azərbaycan Boks Federasiyasının mövqeyi nədən ibarət olacaq?**

- Azərbaycan Boks Federasiyası əvvəlcə Beynəlxalq Boks Federasiyasının üzvü olub. Bu federasiyada sonradan seçkilər keçirilib, amma Beynəlxalq Olimpiya Komitəsi həmin seçkiləri tanımayıb. Son iki Olimpiya Oyunlarında və təsnifat yarışlarında təşkilatçılığı Beynəlxalq Olimpiya Komitəsi edib, dünya çempionatları isə əvvəlki federasiya tərəfindən davam etdirilib. Təxminən iki il əvvəl "World Boxing" adlı yeni federasiya yaradılıb və Beynəlxalq Olimpiya Komitəsi artıq onu tanımağa başlayıb. Hazırda iki ayrı federasiya mövcuddur. Azərbaycan Boks Federasiyası hər iki qurumda təmsil olunur.

**- Azərbaycan idmanının yaxın gələcəkdəki perspektivini necə qiymətləndirirsiniz? Qarşıdakı böyük yarışlarda yeniyetmə və gənclərə güvənməliyik. Onların potensialını necə görürsünüz?**

- Federasiyalar və klublar idmançı yetişdirir, həm Gənclər və İdman Nazirliyi, həm də Milli Olimpiya Komitəsi dəstək olur. Nəticə əldə etmək üçün idmançıların yetişdirilməsi vacibdir, bu mərhələli prosesdir. Artıq hansı idman növlərində, neçə idmançı ilə təmsil oluna biləcəyimiz barədə mümkün proqnozlar var. Real və istənilən proqnozlar üzərində iş gedir. Əsas məqsəd idmançıları Olimpiadaya hazırlamaqdır. Bu, həm maliyyə, həm də hazırlıq prosesindən asılıdır. Potensial idmançılar var və onlar oyunlara hazırlaşırlar. Olimpiadada ən azından 30-cu yeri qoruyub saxlamaq, daha üstün yer tutmaq istəyirik. Digər ölkələr də güclü çalışır. Paris Olimpiadasında yaxşı nəticə əldə olunub. Sözsüz ki, ötən il cüdoçularımızın Olimpiadada əldə etdiyi 2 qızıl medal ümidlərimizi artırdı. Azərbaycan üçün 30-cu pillədə olmaq rekord nəticədir. Qızıl medallar çox vacibdir və bu gün onları qazana biləcək idmançılar görünür.

**- Nazirliyin süni intellektlə bağlı layihələri varmı?**

- Bununla bağlı bizim gənclər sahəsində çox layihələrimiz var, artıq ikinci ildir qrantlar elan olunur və bu gənclər təşkilatlarının inkişafı üçün yaxşı fürsətdir. Həm qrantlarda, həm də digər layihələrimizdə süni intellektə (Aİ) yönəlmiş layihələr mövcuddur. Bundan başqa, Aİ ilə birgə idman sahəsində də yaxşı layihəmiz var, onu xarici şirkətlə həyata keçiririk. Ümumiyyətlə, layihələrimiz var və hesab edirəm ki, artıq bu sahədə fəaliyyət göstəririk və ən azından başlamaq lazım idi. Doğrudan da maraqlı layihələrimiz mövcuddur.

## Azercell "Ən yaxşı idman dəstəkçisi" nominasiyasında mükafatlandırılıb

Gənclər və İdman Nazirliyi tərəfindən 2025-ci ilin idman yekunlarına həsr olunmuş rəsmi tədbirdə "Azercell Telekom" MMC ölkədə idmanın inkişafına verdiyi töhfəyə görə ilin ən yaxşı idman dəstəkçilərindən biri elan edilib.

Tədbirə idman federasiyalarının və təşkilatlarının rəhbərləri, media nümayəndələri, tanınmış idmançılar, məşqçilər və idman ictimaiyyətinin üzvləri qatılıb.

Qeyd edək ki, Azercell uzun illərdir ölkədə idmanın inkişafına və sağlam həyat tərzinin təşviqinə yönəlmiş ardıcıl təşəbbüslər həyata keçirir. Şirkət milli idman federasiyaları ilə əməkdaşlıq edir, uşaqlar və gənclər üçün  bu sahədə sosial layihələrin icrasına töhfə verir.

Azercell-in Azərbaycan Cüdo Federasiyası (ACF) ilə tərəfdaşlıqda həyata keçirdiyi "Qızlara ağ yaraşır" sosial layihəsi erkən nikah mövzusunu gündəmə gətirərək gənc qızlar arasında idmana marağın artırılması və sağlam həyat tərzinin təşviqi məqsədini daşıyıb. Layihə çərçivəsində 7-14 yaş aralığında 1000 qız cüdo məşğələlərinə cəlb olunub. Bununla yanaşı, şirkətin ACF ilə birgə icra etdiyi daha bir sosial layihə, "Doğru yol budur" təşəbbüsü, gənclərin zərərli vərdişlərdən uzaqlaşdırılması, sağlam həyat tərzinin təbliğatına yönəlib.

Eyni zamanda, Azercell 2017-ci ildən etibarən Paralimpiya Komitəsinin tərəfdaşıdır.

Bu təşəbbüslər vasitəsilə "Azercell Telekom" MMC idmanı sosial dəyişikliklərin təşviqində əhəmiyyətli rol oynayan istiqamət kimi dəyərləndirdiyini və uzunmüddətli, dayanıqlı sosial təsirin yaradılması istiqamətində strateji yanaşmasını nümayiş etdirir.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4826
Sifariş: 2646
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova